www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 iyun 2015-ci il Cümə № 132 (6160) Qiymәti 40 qәpik

**Xəbər**

## PKK-ya qoşulan azərbaycanlı tələbələrlə bağlı yeni məlumatlar

yazısı səh.6-da

**Gündəm**

### Britaniya ilə rəsmi Bakı arasında qalmaqal



İngiltərə səfirinin açıqlaması sərt reaksiya doğurdu; Novruz Məmmədov: "O elə hesab edir ki, Azərbaycanla bağlı nə istəsə deyə və edə bilər"

yazısı səh.11-də

### Bankir 250 milyonu oğurlayıb Bakıdan Dubaya qaçdı

yazısı səh.5-də

### Əfv dekabra qaldı?

yazısı səh.3-də

### Emin Hüseynov mübhəmi davam edir

yazısı səh.4-də

### Rəhim Qazıyev "Yeni Müsavat"ın yazdıqlarına reaksiya verdi

yazısı səh.3-də

### Həbsdən azad edilən NİDA-çını yenidən məhkəməyə çağırırlar

yazısı səh.6-da

### Müsavat başqanı Brüsseldə kimlərlə görüşüb?

yazısı səh.11-də

### Qaraçuxur məscidini yandıranların mühakiməsi başladı

yazısı səh.10-da

### Ramazan gəldi, qiymətlər bahalaşdı...

yazısı səh.15-də

### Ekspert ABŞ-Azərbaycan münasibətlərindən danışdı

yazısı səh.10-da

**Ramazan ayının 2-ci günü**

**İftar 21.30. İmsaq (azan) 4.40 (QMİ)**

**2-ci günün duası: "İlahi, bu gün məni razı olduğun əməllərə yaxın et və məni Öz qəzəbindən uzaqlaşdır! Belə bir gündə məni kitabın sayılan Quranın ayələrini oxumağa nail et! Ey, rəhm edənlərin ən Rəhimlisi!"**

**İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".**

**ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!**

## Qovulmuş səfir prezidentin ətrafını hədəf aldı

# ZİYA MƏMMƏDOV "QİYAMÇI" SƏFİRİN AİLƏ DOSTU ÇIXDI

Arif Məmmədovla Abbas Abbasovun və nəqliyyat nazirinin yaxın münasibətləri haqda ilginc məlumatlar; sabiq səfirin atasına Nəqliyyat Nazirliyində kim vəzifə verib?; Avropa Oyunları ərəfəsində şəhər nəqliyyatındakı külli miqdarda paydan məhrum edilən Məmmədovlar əsas vəzifə kürsüsünü də itirə bilərlər




yazısı səh.5-də

# Kremlin Bakıya qaz şantajının ikinci hissəsi işə düşür

Moskva Ankara ilə "Türk axını" danışıqlarını dayandırır, lakin kəmərin dəniz hissəsinin inşasını da israrla davam etdirir; Türkiyədə 7 iyun seçkiləri Azərbaycan üçün əlverişli durum yaradıb, ancaq...

yazısı səh.8-də



### "Hafka"nın "müalicəsi" bitmir, bankı isə batır...

yazısı səh.4-də



### Deputatın qardaşı oğlu həbs edildi

yazısı səh.3-də



*Rauf Arifoğlu:*

### "İbrahimbəyov getdi, Camil də gedəcək - Kərimli balası isə əbədidir..."

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015

## AKP-nin koalisiya danışıqlarını aparacaq şəxslər bəlli oldu




**Türkiyənin "Yeni Şəfəq" qəzetinin məlumatına görə, AKP parlament seçkisindən sonra siyasi fəaliyyətini davam etdirmək üçün yol xəritəsi müəyyən edib. Avropa.info xəbər verir ki, hakim partiya hökumətin yaradılması məqsədilə müxtəlif koalisiya düsturları üzərində çalışır. Baş nazir Əhməd Davudoğlu hökuməti qurmaq üçün CHP və MHP ilə danışıqlar aparacaq bir komissiya yaradacaq. Bu məqsəd yerinə yetirmək üçün iki heyət təyin olunacaq.**

AKP-dən partiyalar arası dialoqu aparacaq şəxslər bunlardır: Sədr müavinləri Mehmet Ali Şahin, Mustafa Şentop, əmək və sosial təminat naziri Faruk Çelik, AKP Rəyasət Heyətinin üzvü Salih Kapusuz və baş katib Haluk İpek.

Partiyalarla təmasdan sonra heyətlərin siyasi qənaətləri baş nazir Davudoğluna təqdim olunacaq. Koalisiya qurmaq ehtimalında vəziyyətə uyğun protokol hazırlanacaq. Bunun üçün də iki fərqli protokol mətni hazırlanacaq.

Heyətlərarası təmasdan sonra Davudoğlu partiya liderləri ilə görüşəcək. Ardınca qiymətləndirmə iclası keçiriləcək. Bu iclasda hansı partiya ilə koalisiyaya gediləcəyi haqda qəti qərar veriləcək. Əgər bütün koalisiya imkanları iflasa uğrayacaqsa, təkrar seçki tək çıxış yolu olacaq.

MHP və CHP də koalisiya üçün danışıqlar aparacaq nümayəndələrini müəyyən ediblər. Təyin olunan heyətlərdə CHP-nin sədr müavinləru Gürsel Tekin və Sezgin Tanrıkulu, parlament fraksiyasının sədri Levent Gök, MHP-dən sədr müavinləri Tuğrul Türkeş, Zuhal Topçu və Edip Semih Yalçın ilə millət vəkili Murat Başesgioğlu yer alacaqlar.

## Çində Ramazan ayında oruc tutmaq qadağan edildi

**Çinin Sintszyan regionunda yerli hökumət Kommunist Partiyasının üzvlərinə, dövlət qulluqçularına və büdcə müəssisələrinin əməkdaşlarına müsəlmanlar üçün müqəddəs olan Ramazan ayında oruc tutmağı qadağan ediblər.**

"İslamnews" xəbər verir ki, Sintszyanın müxtəlif idarələrinin rəsmi saytlarında məmurlara, dövlət qulluqçuları, pedaqoq, tələbə və məktəblilərə oruc tutmağın qadağan edilməsinə dair xəbərdarlıqlar yerləşdirilib.

Bəzi işçilər Ramazan ayı ərzində oruc tutmayacaqları haqqında hətta yazılı iltizam belə alırlar. Bu iltizamlarda onlar "dini etiqadlarının olmamasını, dini mərasimlərə qatılmayacaqlarını və Ramazan ayında oruc tutmamaqda nümunə olacaqlarını təsdiqləyirlər".

Bundan başqa, bəzi nəzarət orqanları ümumi qida müəssisələrindən Ramazan boyu gündüz saatlarında müəssisələri bağlamamağı, mağazalardan isə öz çeşidləri sırasına siqaret və alkoqollu içkiləri əlavə etməyi tələb ediblər.

## Azərbaycan sərhədinə qədər üzən Tiflis pinqvini yoxa çıxıb

**Tiflis zooparkının mütəxəssisləri Afrika pinqvinini tapmağa nail olmayıblar. Məlumata əsasən, pinqvin Tiflisdə baş verən daşqından sonra üzərək Azərbaycan sərhədinə qədər gəlib çatıb. Oxu.az xəbər verir ki, bu barədə "Novosti-Qruzii" müxbirinə zooparkın administrasiyasından bildirilib.**

"Bizim əməkdaşlarımız ora yollanıblar, bütün ərazini nəzərdən keçiriblər, amma təəssüf ki, pinqvini tapmaq mümkün olmayıb", - zooparkdan bildiriblər.

Dünən zooparkın administrasiyasından bildirmişdilər ki, Qırmızı Körpü (Gürcüstan-Azərbaycan sərhədi) yaxınlığında çayda Tiflisdə daşqın zamanı zooparkdan qaçan Afrika pinqvini görünüb. Bir qrup mütəxəssis onu Tiflisə gətirmək üçün operativ şəkildə hadisə yerinə gəlib...

### Məlumat

**2015 - ci ilin iyul ayında Bakı şəhərində Azərbaycan Xalq Partiyasının 3- cü qurultayı keçiriləcək. Qurultayın gündəliyinə seçkili orqanların formalaşdırılması, AXP nizamnaməsinə əlavə və dəyişikliklərin qəbulu nəzərdə tutulur.**

**AXP III qurultayının keçirilməsi üzrə Təşkilat Komitəsi.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Avropa Oyunlarına qatılan türk idmançı Bakıda əməliyyat olundu

**"Bakı 2015" I Avropa Oyunlarına Türkiyədən qatılan triatlonçu Ece Bakıcı yarış vaxtı aldığı zədə səbəbindən ayağından əməliyyat edilib. Bu barədə "Report"a idmançının özü məlumat verib.**




O, yarış vaxtı qaçarkən ayağında ağrılar hiss etdiyini deyib: "Ağrılara baxmayaraq, bir müddət dayanmadım və qaçmağa davam etdim. Lakin ağrılar şiddətləndi və mən yıxıldım. Qırağa çəkilərək ambulansı gözlədim".

İdmançı hadisədən sonra Bakıdakı "HB Güven" klinikasında "bud sümüyü boynunun sınığı" diaqnozu ilə əməliyyat olunub: "Mən hadisədən sonra Türkiyəyə qayıtmaq istəyirdim. Lakin həkimlər dedi ki, təcili əməliyyat olunmalıyam".

İndiyə qədərki yarışlara tək getdiyini deyən E.Bakıcı ilk dəfədir ailə üzvlərindən onu müşayiət edənin olduğunu söyləyib: "Anama israrla dedim ki, Bakıya mənimlə gəlsin. Çünki ilk Avropa Oyunları mənim üçün çox vacib idi, buraya qələbə əzmi ilə gəlmişdim... Yaxşı ki, anam mənimlə gəlib".

Qeyd edək ki, E.Bakıcı bu gecə Türkiyəyə yola salınacaq.

## Azərbaycanlı milyarder yaxın üç il üçün neftin qiyməti haqda

**Azərbaycanlı milyarder, Rusiyanın "LUKoil" şirkətinin rəhbəri Vahid Ələkbərov bəyan edib ki, yaxın üç ildə bir barelə görə neftin qiyməti 60-70 dollar arasında dəyişəcək.**

Bu barədə azvision.az "RİA Novosti"yə istinadən xəbər verir.

"Biz hesab edirik ki, neftin qiyməti hələ bir müddət bu aşağı səviyyədə qalacaq", - deyə Ələkbərov jurnalistlərə açıqlamasında bildirib.

Qeyd edək ki, bir müddət öncə Texasda neft üzrə beynəlxalq konfransda çıxış edən "LUKoil" prezidenti qeyd etmişdi ki, neftin qiymətinin aşağı düşməsi davam etməyəcək.

V.Ələkbərov vurğulamışdı ki, Rusiyada neft hasilatı tezliklə sabitləşəcək və yaxın perspektivdə bir az azalacaq: "Biz əminik ki, Arktikada böyük ehtiyatların işə salınması ilə Rusiya yenidən neft hasilatı üzrə liderliyə qalxacaq".

## Olimpiya Oyunları ərəfəsində pulsuz aksiyalar olmayacaq

**Nazim Məcidov: "Attraksionların qiymətində nə bahalaşma, nə də ucuzlaşma var"**

**İyunun 17-də bulvardakı bütün attraksionların pulsuz olduğu, hətta bulvar ərazisində uşaqlara müxtəlif içkilərin də pulsuz verilməsi barədə xəbərlər yayılıb. Valideynlərin əksəriyyəti bu cür yayılan xəbərlərin nə dərəcə doğru olub-olmaması ilə maraqlanır və bu cür kampaniyaların növbəti dəfə hansı günlərdə olması ilə maraqlanırlar.**

Bizdə yayılan bu xəbərlərin nə dərəcədə doğru olub olmadığını öyrənmək üçün Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidovla telefon əlaqəsi saxladıq. N. Məcidov deyilənlərin şayiə olduğunu bildirdi: "Biz Olimpiya Oyunları ərəfəsində pulsuz aksiyalar keçirə bilməyəcəyik. Çünki turistlərin sayı çoxdur. Buna fiziki olaraq bunu gücümüz çatmır. Ona görə də bu yaxınlarda pulsuz aksiya olmayacaq. Yayılan xəbərlər isə yanlışdır. Attraksionların qiymətində nə bahalaşma, nə də ucuzlaşma var. Əvvəl necə idisə indi də elədir".

❑ **Günel MANAFLI**


## «Azercell»lə sərfəli internet hər yerdə

### "4G MiFi və 3G USB Modem" kampaniyasında yenilik

**Bütün dünyada olduğu kimi, Azərbaycanda da mobil internet istifadəçilərinin sayı gündən-gün artmaqdadır. Müştərilərinin tələbat və istəklərini daim öndə tutan ölkənin lider mobil operatoru «Azercell» Telekom da mobil internet istifadəçilərini sevindirəcək bir yenilik edir. Belə ki, 18.06.2015 tarixindən etibarən abunəçilər "«Azercell»dən 4G MiFi və 3G USB Modem" kampaniyası çərçivəsində ilk ay verilən10GB bonus bitdikdən sonra, "SERFELİ" yazıb 2525-ə göndərməklə 10GB=10AZN paketindən yararlana biləcəklər.**




Abunəçi 10GB=10AZN internet paketini 2 üsulla aktiv edə bilər: SERFELİ yazib 2525-ə göndərməklə və Dealer Online proqramı vasitəsilə. Qeyd edək ki, 10GB=10AZN internet paketi yalnız ilk ayda abunəçiyə hədiyyə kimi verilən 10GB bonus bitdikdən sonra istifadə oluna bilər. Hər 30 gündən bir avtomatik olaraq yenilənən 10GB=10AZN internet paketindəki 10 GB internetin istifadə müddəti 30 gündür. Amma 10 GB-lik paket 30 gün müddətindən tez bitdikdən sonra da abunəçi internetsiz qalmır. Bu zaman internetin sürəti 128 Kb/s təşkil edəcək. Onu da nəzərinizə çatdıraq ki, 10 GB bonus və ya bonus müddəti (30 gün) bitdikdən sonra mövcud internet paketlərindən istifadə etmək üçün müvafiq açar sözü 2525-ə göndərilməlidir.

Məlumat üçün bildirək ki, şirkətin aprel ayında istifadəyə verdiyi "4G MiFi və 3G USB Modem" kampaniyası çərçivəsində «Azercell»dən 4G MiFi and 3G USB modem alan hər bir abunəçiyə 10 GB həcmdə internet hədiyyə olunur. Kampaniya zamanı 3G USB modem üçün 20 AZN, 4G MiFi üçünsə, 80 AZN verilən nömrənin balansına yüklənilir və bunun qarşılığında abunəçiyə 10 GB pulsuz internet təqdim olunur.

«Azercell» bundan sonra da öz abunəçilərinə keyfiyyətli rabitə, peşəkar abunə xidməti və qabaqcıl texnoloji həllərlə yanaşı, geniş sayda kampaniyalar, xidmətlər və sərfəli tariflər təqdim etməkdə davam edəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz

«Azercell Telekom» MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell» Ekspres ofisləri, mobil elektron xidməti "ASAN İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51.3% olan «Azercell»-in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2014-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. «Azercell» dünyanın 20 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaşı olan TeliaSonera şirkətlər qrupunun bir hissəsidir.


## FİFA-dan "Neftçi"yə xəbərdarlıq: 1 milyon ödənməlidir

**FİFA Bakının "Neftçi" klubuna sərt xəbərdarlıq edib. APA-nın məlumatına görə, paytaxt təmsilçisi sabiq futbolçusu Emil Mpenzaya olan borcunu ödəməyə məhkum edilib.**

Ali futbol qurumu belçikalı oyunçu ilə klub arasında mübahisəli vəziyyəti araşdıraraq, müvafiq qərarı verib. Artıq bu qərar barədə məlumatlandırılan "Neftçi" Mpenzaya təxminən 1 milyon dollar ödəməlidir.

Bu, 2010-cu ilin yayında "Neftçi"yə keçən, 3 illik müqavilə imzalamasına baxmayaraq, ilyarım sonra qovulan legionerə vaxtında ödənilməyən puldur. 2012-ci ilin əvvəlində Emilə özünə klub tapmaq tövsiyə edilib. Bunun üçün ona rəsmi icazə verib, yola salan bakılılar onun klub tapacağı vaxta qədər maaşını da ödəməyə razılaşıblar. Amma az keçməmiş paytaxt təmsilçisi FİFA-ya belçikalının komandanı özbaşına tərk etməsi ilə bağlı şikayət ünvanlayıb (futbolinfo.az).

Məsələdən xəbər tutan Mpenzanın özü də quruma şikayət etməyi lazım bilib. Bundan sonra məsələyə baxan FİFA da futbolçunun tərəfində durub. "Ağ-qaralar"ı məbləği ödəməyə məhkum edən qurum kluba daha sərt cəzalara bağlı xəbərdarlıq da edib.

Belə ki, "Neftçi" Emilin pulunu ödəməsə transfer qadağası, hesabından xal silinməsi, aşağı dəstəyə göndərilməsi kimi cəzalara məruz qala bilər.

## Bakıda saxta pul həyəcanı

**Sosial şəbəkələrdə Bakıda saxta pul yayılması barədə məlumat yayılıb. Milli.az xəbər verir ki, Yasamal və Nərimanov rayonlarında bir qrup şəxs saxta pulları mağazalara yaymaqla məşğuldur.**

Yayılan məlumata görə, pullar əslində heç seçilmir, kağızı da çox oxşardır. Saxta pul ələ toxunanda da həqiqisindən seçmək çətindir. Sadəcə, arxa tərəfindəki parlaq zərli xəttə baxanda bilmək olur. Saxta pullar xüsusi olaraq laminasiya olunub. Bəzi mağazalar hətta xəbərləri olmadan insanlara saxta pulu qalıq kimi qaytarırlar. Sonra isə müştəri ilə satıcı arasında problem yaşanır. Saxta əskinazlar əsasən 5 və 1 manatlıqdır.

Məsələ ilə bağlı sözügedən rayonların polis idarələrindən sayta bildirilib ki, saxta pulla bağlı onlara məlumat daxil olmayıb.

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Rəhim Qazıyev "Yeni Müsavat"ın yazdıqlarına reaksiya verdi

## Sabiq nazir "22 il öncənin sirri: Elçibəy Kələkiyə getməsəydi..." yazısında yer alan bəzi fikirlərə etirazını bildirib

**Sabiq müdafiə naziri Rəhim Qazıyev moderator.az-a açıqlamasında "Yeni Müsavat" qəzetində dərc olunan "22 il öncənin sirri: Elçibəy Kələkiyə getməsəydi..." yazısında yer alan bəzi fikirlərə etirazını bildirib: "Yeni Müsavat" qəzetində "22 il öncənin sirri: Elçibəy Kələkiyə getməsəydi" başlıqlı, Etibar Seyidağanın imzası olan məqalədə deyilir ki, 13 iyunda Müdafiə Nazirliyinin Rəhim Qazıyev, Etibar Məmmədov və Rəsul Quliyevin iştirakı ilə keçirilən müşavirəsində verdiyi qərarla, eləcə də İsa Qəmbərin Ali Sovetin sədri postundan istefa verməsi, 15 iyunda isə həmin posta Heydər Əliyevin seçilməsindən sonra AXC hakimiyyətinin taleyi həll olunmuş sayılırdı.**

Bildirirəm ki, 13 iyun tarixində orda heç kim olmayıb, heç kim də müşavirə keçirməyib. Müşavirə deyilən görüş hərbçilərlə 17 iyun 1993-cü ildə, saat təxminən 2-3 arasında keçirilib. Yəni bu görüş 13-ü yox, 17-si tarixində reallaşıb".

**R.Qazıyev Əbülfəz Elçibəyin Kələkiyə getməsini isə fərarilik adlandırıb:** "Əbülfəz bəyin öldürülə biləcəyi ilə bağlı da fikirlər səsləndirilirdi. Bunların hamısı hakimiyyəti ələ keçirmək üçün yayılan şayiələr idi. İnsanları bununla aldatmağa çalışırdılar. Dövlət başçısı, Ali Baş Komandan nəyin bahasına olursa-olsun təhlükəsizliyinə və içdiyi dövləti, qorumalı olduğu vətəndaşları qoyub özbaşına getməməli idi...

İyunun 7-də Əbülfəz bəylə görüşüb təklif etdim ki, nüfuzlu bir heyət yaradılsın və həmin heyətlə birlikdə Gəncəyə getsin. Mən bildirdim ki, siz ora getsəniz bütün gərginlik azalacaq, hər şey qaydasına düşəcək. Bəyi inandıra bilmədim. Bəy təkidlə bildirdi ki, məni öldürəcəklər. Mən qeyd etdim ki, orda kimsə sizə güllə atmağa hazırlaşmır. Əgər sizə güllə atılarsa, mən sinəmi qabağa verərəm. Yox, məni öldürəndən sonra sizə də zorakılıq göstərərlərsə, bu həm Allah, həm də bəndə qarşısında sizə bəxş edilən xoşbəxtlik olar. Siz həm şəhid olarsınız, həm də vətəndaş müharibəsinin qarşısını almaq üçün öz canını fəda edən bir şəxs kimi tarixə düşərsiniz.

Bu, mənim bəylə sonuncu görüşüm oldu. Ondan sonra mən Əbülfəz bəylə görüşməmişəm. Mən son görüşümüzdə ona bildirdim ki, bu kabinetdə 10 gündən artıq otura bilməyəcəksiniz.

İyunun 17-də Müdafiə Nazirliyinə getdim. Etibar Məmmədov və Rəsul Quliyev də yanımda idilər. Onların heç biri ağzını açıb danışmadı. Mən zabitləri bir yerə yığdım. Bildirdim ki, parlamentin qərarı olmadan döyüşən əsgərləri ön xətdən gətirib daxili münaqişəyə qoşmaq qanunsuzdur. Bunun üçün prezidentin əmri yetərli deyil. Bundan ötrü parlament xüsusi qərar verməlidir. Bizim çıxışımızdan sonra öz aralarında məsləhətləşən zabitlər Ali Baş Komandana teleqram vurublar. Bildiriblər ki, Ali Sovetin qərarı olmalıdır və bunsuz Ali Baş Komandan kimi sizin əmrinizi yetərli hesab eləmirik. Əsgərləri döyüş bölgəsindən çıxarıb daxili münaqişəyə qoşmayacağıq.



Rəhim Qazıyev

Bu teleqram Əbülfəz bəyə çatandan sonra kimlərin ona nə məsləhət verdiyini bilmirəm. Amma fakt odur ki, o, 17-dən 18-nə keçən gecə Kələkiyə gedib. Hadisə belə olub.

Mən Əbülfəz bəylə son görüşümdən sonra ardıcıl olaraq onun istefasını tələb eləmişəm. Mən illərlə dediyimi bu gün də deyirəm. E.Seyidağa 13 iyun tarixində bizim getməyimizi hardan alıb, buyurub desin.

Çoxları deyir ki, Əbülfəz bəy getsəydi, sui-qəsdə məruz qalacaqdı. Bunlar yalandır. Ali Baş Komandan, dövlət başçısı müharibə gedən ölkəni başsız qoyub getməməli idi. Bu, birbaşa fərarilikdir. Bunu demişəm və ölənə kimi də deyəcəm. O, qalmalı idi. Xalqa müraciət edib, xalqa söykənib bu münaqişəni yatırmalı idi. Onun hakimiyyəti qoyub getməyə haqqı yox idi. Onun getməyi hər şeyi dəyişdi".

"Yeni Müsavat"ın 17 iyun tarixli sayında "22 il öncənin sirri: Elçibəy Kələkiyə getməsəydi" başlıqlı yazını oxuyanlar və R.Qazıyevin yuxarıdakı fikirlərinə nəzər yetirən diqqətli oxucular yəqin ki, sabiq nazirin əslində həmin məqalədə yazılanları təsdiqlədiyinin fərqindədirlər. R.Qazıyevin yeganə təkzib etdiyi məqam "Yeni Müsavat"ın iyunun 17-də Müdafiə Nazirliyində keçirilmiş görüşü iyunun 13-də keçirilmiş toplantı olaraq təqdim etməsidir. Göründüyü kimi, R.Qazıyev özünün, Etibar Məmmədovun və Rəsul Quliyevin iştirakı ilə Müdafiə Nazirliyində görüş keçirildiyi və həmin görüşdən sonra Gəncədə baş verən hadisələr siyasi məsələ olduğuna görə ordunun bu məsələlərə qarışmayacağı və kənarda qalacağını bəyan etdikləri, bununla əslində Ali Baş Komandana tabesizlik nümayiş etdirildiyi barədə "Yeni Müsavat"ın yazdıqlarını təsdiqləmiş, etiraf etmiş olub.

Müdafiə Nazirliyində Ali Baş Komandana faktiki olaraq asi çıxılan toplantının tarixinin iyunun 17-də deyil, 13-ü olaraq qeyd edilməsi isə sırf texniki xəta üzündən baş verib. Əsas odur ki, R.Qazıyevin özü də təsdiqləyir ki, bəli belə bir toplantı olub və məlum mövqe ortaya qoyulub.

**Tanınmış ictimai-siyasi xadim, Elçibəyin kürəkəni Aqil Səmədbəyli isə facebook səhifəsində Rəhim Qazıyevin açıqlaması ilə bağlı maraqlı status paylaşıb:** "Qısaca deyim ki, Ə.Elçibəyin Kələkiyə getməsini, onun guya öldürülməsindən qorxmasıyla əlaqələndirməyə çalışmaq sadəcə cahillikdir. Ölümdən qorxan adam təkbaşına sovet imperiyasına qarşı savaş elan etməzdi. Ölümdən qorxan adam rus imperiyasının 75.000-lik ordusunu ölkədən qovmazdı.

Gəncədə rus kəşfiyyatına bağlı snayperlər vardı ki, necə ki, Ukraynada xalqa atəş açıb 100-dən çox adamı öldürmüşdülər, eyni adamlar Gəncədə Prezident Qvardiyasının rəhbərini və qvardiyanın 22 əsgərini şəhid etdilər.

Barışıq yaratmaq üçün əlində ağ bayraq hökumət qüvvələrinə tərəf gedən Mehman bəyi də elə rus kəşfiyyatı vurdu. Elçibəy dəqiq bilirdi ki, Gəncəyə getsə, mütləq rus kəşfiyyatı onu öldürəcək! Elçibəy ölümdən qorxduğuna görə yox, vətəndaş müharibəsi ola biləcəyindən qorxduğu üçün Gəncəyə yox, Kələkiyə getdi! Vətəndaş müharibəsi planının Moskvada hazırlanmasından xəbəri vardı! Elçibəy həyatının heç bir dövründə özünü düşünmədi! Elçibəy hər zaman millətini və dövlətini düşündü! Elçibəy həyatının heç bir dönəmində özü üçün qorxmadı! Elçibəy hər zaman Vətəninin və dövlətinin itirilməsindən qorxdu! Şuşa işğaldadır- Rəhim Qazıyevə xatırlatma..."

**Əbülfəz Elçibəyin yaxın silahdaşı olmuş KXCP sədri Mirmahmud Mirəlioğlu isə bildirdi ki, Rəhim Qazıyevin dedikləri o qədər qəbul edilməzdir ki, sadəcə, Ramazan ayıdır deyə ona hansı ifadə ilə cavab verməsinə ehtiyat edir:** "O qədər doğru olmayan, məqbul olmayan məsələdir ki, Rəhim Qazıyevin özünün əvvəl dedikləri ilə də ziddiyyət təşkil edir. Rəhim Qazıyev bir tərəfdən deyir ki, Elçibəydən ötrü sinəsini güllənin qabağına verməyə hazır idi, bir tərəfdən isə deyir fərarilik edib. Rəhim Qazıyevi də, Əbülfəz Elçibəyi də hər kəs tanıyır".

❑ **Etibar SEYİDAĞA**

# Əfv dekabra qaldı?

## Mirvari Qəhrəmanlı: "Hökumət siyasətində dəyişiklik etməlidir"

**May-iyun aylarında gözlənilən əfv reallaşmadı. 15 iyun Qurtuluş günü isə bütün ümidlərin üstündən xətt çəkdi. Artıq ümidlər Ramazan və Qurban bayramlarına qalıb. Azərbaycan praktikasında isə belə bayramlarda əfv verilməsi nadir hallarda olub. Bunları düşünsək, növbəti əfvin dekabr ayına qədər uzanması ehtimalı daha yüksək görünür.**



Mirvari Qəhrəmanlı

Heç şübhəsiz ki, Avropa Oyunlarının keçirildiyi vaxtda belə bir sərəncamın verilməsi ölkəmiz adına müsbət nəticələr verər, yarışmanın nüfuzunu daha da qaldırardı. Amma bir fakt dəyişmir. Ölkə iqtidarı təzyiqlər qarşısında daim direniş göstərmək yolunu məqbul hesab edir. Bəzi hüquq müdafiəçiləri də məhz bu baxımdan xarici təşkilatların Azərbaycan hakimiyyətinə təzyiq etmələrini doğru hesab etmirlər.

İyunun 22-də AŞ PA-nın yay sessiyası başlayacaq. Sessiyada Azərbaycanla bağlı dinləmələr olacaq. Ölkəmizin siyasi məhbuslara görə ciddi qınağa tuş gələcəyi qaçılmazdır. Hakimiyyət də bunu bilməmiş deyil.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı ilin sonunadək əfv veriləcəyini bildirdi:** "Əfv səlahiyyəti prezidentdədir. Əfv zamanı yalnız siyasi məhbuslar azad olunmur. Azad olunanların əksəriyyəti bu və ya digər səbəbdən həbs olunanlardır. Zaman-zaman da ölkədə bununla bağlı ölkə başçısının sərəncamı olur. Düşünürəm ki, hər halda, ilin sonunadək ölkədə əfv ola bilər. Amma arzu edərdim ki, ən gözəl bayramımız olan Ramazanda əfv olsun. Ölkə başçısı böyük savaba batardı. Ramazanda savab iş görmək isə Allaha xoş gedər və bir çox günahların bağışlanması üçün gözəl bir iş olardı".

**Hüquq müdafiəçisi beynəlxalq təşkilatların Azərbaycana olan təzyiqlərinə də toxundu:** "Gördüyünüz kimi, belə müzakirələr bir nəticə vermir, ölkədə birmənalı qarşılanmır. Düşünürəm ki, beynəlxalq təşkilatlar bununla bağlı öz siyasətlərinə yenidən baxmalıdırlar. Siyasi məhbusların müdafiəsi üçün daha məqbul variant seçilməlidir. Münaqişələr, narahat bəyanatlar illərlə uzana bilər. Bu yol mənim tərəfimdən göstərilməməlidir. Hökumət özü də siyasətində dəyişiklik etməlidir. Ən ağır konfliktlər, problemlər də öz həllini dialoqlar əsasında tapır. Dialoqlar *(söhbət real dialoqdan gedir)* müxtəlif çərçivələrdə aparıla bilər. Emin Hüseynovun ölkədən çıxarılması da dialoqun nəticəsidir".

❑ **Cavanşir ABBASLI**

# Deputatın qardaşı oğlu həbs edildi

## Namiq Əhmədov Milli Qəhrəmanın ailəsinə qarşı dələduzluq edib

**İqtisadçı deputat Vahid Əhmədovun qardaşı oğlu Namiq Əhmədov həbs edilib. Onun bir vətəndaşın şikayəti əsasında saxlanıldığı deyilir. Nəsimi Rayon Polis İdarəsində başlanılmış cinayət işi çərçivəsində o, 10 gün əvvəl saxlanılıb. Artıq N.Əhmədovun barəsində həbs-qətimkan tədbiri də seçilib. Ona Cinayət Məcəlləsinin 178.2.4 (dələduzluq) maddəsi ilə ittiham elan olunub.**



Vahid Əhmədov

Deputatın qardaşı oğlu Rasim İsgəndər oğlu İsgəndərov adlı şikayətçinin müraciəti əsasında məsuliyyətə cəlb olunub. R.İsgəndərov 1995-ci ilin mart hadisələrində şəhid olan Azərbaycanın Milli Qəhrəmanı Famil İsgəndərovun qardaşıdır. Şikayətçi müraciətində bildirib ki, Namiq Əhmədov ondan mühasib vəzifəsinə düzəltmək adı ilə 5 min manat alıb. Lakin sonradan işə düzəltməyib və pulu qaytarmaqdan boyun qaçırıb.

Qeyd edək ki, Vahid Əhmədovun oğlu Zəfər Əhmədov Baş Prokurorluqda Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində müstəntiq vəzifəsində çalışır.

Vahid Əhmədovun özündən baş verən hadisəyə mövqe almağa çalışsaq da, mümkün olmadı. Gün ərzində deputatın telefonuna zəng çatmadı.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) sədri Emin Hüseynovun İsveçrənin xarici işlər naziri Didye Burkhalter tərəfindən ölkədən çıxarılmasının detalları barədə daha öncə məlumat vermişdik. Məlumatlara görə, E.Hüseynov 10 aydır gizləndiyi İsveçrə səfirliyinin binasını Azərbaycan və İsveçrə hakimiyyətləri arasında əldə edilmiş razılıq sayəsində tərk edib. Bu razılaşma Azərbaycan və İsveçrə arasında dostluq və tərəfdaşlıq münasibətləri çərçivəsində əldə edilib.**



# Emin Hüseynov mübhəmi davam edir

## Mehman Əliyev: "Rəsmi açıqlama verilməməsi diqqət çəkir"




Bundan başqa, E.Hüseynov Azərbaycan dövləti qarşısında vergi borcunu tamamilə ödəyib *(təxminən 160 min dollardan söhbət gedir)*. Həmçinin Azərbaycan prezidentinin sərəncamı ilə Emin Hüseynovun ölkə vətəndaşlığından çıxmasına dair müraciəti təmin olunub. Bununla birlikdə onun barəsində 2014-cü ilin avqustunda qəbul edilmiş həbs-qətimkan tədbiri ləğv edilib və E.Hüseynovun müalicə almaq üçün İsveçrəyə getməsinə icazə verilib.

E.Hüseynovla bağlı bu gözlənilməz gəlişmənin arxasındakı danışıqlar, səbəblər isə hələ ki məlum deyil. Müvafiq strukturlar tərəfindən E.Hüseynovun ölkədən çıxışı ilə bağlı rəsmi məlumatın yayılmaması da bu sual işarələrini artırır.

**Bu hadisəni təhlil edən "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev bildirdi ki, bu günə qədər heç vaxt İsveçrə səfirliyi ilə əlaqəsi olmayıb, E.Hüseynovun gedişindən isə media vasitəsilə xəbər tutub:** "Bildiyimə görə, İsveçrə xarici işlər nazirinin təyyarəsi ilə gediblər. Bu hadisə kifayət qədər qapalı saxlanılıb. Ona görə də məndə bu barədə informasiya ancaq mətbuat vasitəsilə oxuduqlarımdır. Vergisini ödəyib-ödəməməsi barədə məlumatdan xəbərim yoxdur. Vətəndaşlıqdan çıxarılması isə inandırıcı deyil. Hesab edirəm ki, Azərbaycan hökuməti öhdəlik yerinə yetirib".

**M.Əliyev dedi ki, Davos sammiti zamanı İlham Əliyev İsveçrədə olanda da E.Hüseynov məsələsi müzakirə olunub. Müsahibimiz "hakimiyyətin bu güzəşti İsveçrənin Avropa Oyunlarına qatılmaqla bağlı irəli sürdüyü şərtin qarşılığında baş tutmuş ola bilərmi" sualına cavabda dedi ki, əslində dövlətlər arasında danışıqlar hər zaman aparılıb. Diplomatik kanallar isə bu danışıqlarda olduqca fəal olublar. M.Əliyev Avropa Oyunlarının bu danışıqlar zamanı hər hansı rol oynamadığını düşünür:** "Guya İsveçrə iştirak etməsəydi, nə olardı ki? İsveçrənin olmaması nəyi dəyişərdi? Düşünmürəm ki, birbaşa bu məsələ ilə bağlı olsun. Bu hadisənin arxasında bizə görünməyən məqamlar olub çox güman ki..."

**"Turan"ın direktoru hesab edir ki, E.Hüseynov bütün hallarda ən yuxarı instansiyanın razılığı alınandan sonra ölkəni tərk edib. Bəzi YAP-çı deputatların dediyi kimi, RATİ sədrinin gizlin şəkildə ölkəni tərk etməsi qeyri-mümkündür:** "O, heç bir halda bu ölkədən qaça bilməzdi. Qaldığı səfirliyin ətrafı tam nəzarətdə idi. Polis nəzarəti gücləndirilmişdi. Qaçmaq üçün təbii ki, aeroporta gəlmək lazım idi və sair. Bütün bunlar xırda detal kimi görünsə də, əslində əhəmiyyətlidir. Əgər hazırda dövlət orqanları danışmırsa, Siyavuş Novruzovun və ya qeyrisinin Emin Hüseynov barəsində "ölkəni gizli tərk edib" deməsi heç bir əhəmiyyət kəsb etmir. Deputat yarırəsmi ictimai qurumdur. Bu prosesə birbaşa aidiyyəti olan dövlət qurumlarından heç kim danışmır. Bu da təbii ki, sualları artırır".

**"Dövlət özünü gücsüz göstərməmək üçün deputatların adından belə bir ictimai rəy formalaşdırmağa çalışır" sualına cavabda isə M.Əliyev dedi ki, ümumiyyətlə bu razılaşmanın nəyin əsasında olması bilinmir. Azərbaycan tərəfi bu barədə rəsmi açıqlama vermir, İsveçrə tərəfi isə ilk açıqlamanı Azərbaycan tərəfinin verməsini istəyir:** "Anormal bir durumdur, dedi-qodular gedir. Amma dövlət orqanları səviyyəsində bir cavab yoxdur. Mən deyə bilmərəm ki, Emin Hüseynov İsveçrədə qalacaq, ya Amerikaya gedəcək, qərarı nədir... Ona bağlamaq lazım deyil ki, mütləq İsveçrə vətəndaşlığını almalıdır. Bu, hər bir şəxsin öz seçimi, hüququdur. İkincisi, vətəndaşlıq belə qısa müddətə verilmir. Öncə oturum verilir, sonra müəyyən vaxt keçir".

**Müsahibimiz hökumətin E.Hüseynovun ölkədən çıxarılması mövzusunda susqunluğuna da bir mənə verə bilmir. M.Əliyev hesab edir ki, hökumət istəsə, bununla bağlı öz xeyrinə işləyəcək açıqlama ilə çıxış edə bilərdi:** ""Bizim sülhməramlı addımımız olub" tipində bir açıqlama verə bilərdilər. Nəsə deyə bilərdilər. Amma eləmirlər. Bu da onu göstərir ki, imic xatirinə edilməyib və bundan sui-istifadə etməmələrinin səbəbi də maraqlıdır".

**M.Əliyev dedi ki, bir neçə il əvvəl "Azadlıq" qəzetinin əməkdaşı Aqil Xəlilin də ölkədən çıxarılması hadisəsi baş verib. Onun sözlərinə görə, A.Xəlildən fərqli olaraq E.Hüseynovun ölkədən çıxarılmasında hər hansı toqquşma olmayıb:** "Görünür ki, vahid razılaşma və qərar olub. Tamam başqa vəziyyətdir. Amma bu olay bir daha göstərir ki, ölkədə azad söz və mediaya ciddi təzyiq var".

**YAP-çı deputat Siyavuş Novruzovun daha öncə bu mövzudakı açıqlamasını yada salaq. S.Novruzov demişdi ki, E.Hüseynov Azərbaycandan gizli yolla aparılıb və bu, qanunsuzluqdur:** "Emin Hüseynov Azərbaycandakı fəaliyyəti ilə bağlı qanun qarşısında cavab verməlidir. İsveçrənin Azərbaycandakı səfirliyi Emin Hüseynovu uzun müddət gizlətdi. Ona verilən 1 milyon 500 min manat qrantın 160 min manatı vergiyə ödənilməli idi. Vergidən yayınma ağır cinayət hesab olunur. Bu maliyyənin bir hissəsini onu verən təşkilat mənimsəyib, müəyyən hissəsi də təyinatdan kənar, başqa istiqamətlərə-dövlət əleyhinə işlərin aparılmasına, kütləvi ixtişaşlara insanların cəlb edilməsinə xərclənib".

**"Yeni Müsavat" isə yenidən S.Novruzova müraciət edərək, onun anlaşma nəticəsində, vergi borcunu ödəyəndən sonra ölkədən çıxarılması xəbərindən sonra mövqeyinin dəyişib-dəyişmədiyini soruşdu. Müxbirimizə açıqlamasında deputat dedi ki, E.Hüseynovun ölkədən gizlin şəkildə getdiyini deyib və bu fikrinin üstündə qalır:** "Bu şəxs təyyarəyə minib, normal, adi qaydada getməyib ki... Onu xüsusi olaraq çıxarıblar. Açıq şəkildədir. Ola bilsin anlaşma var. Amma fakt budur ki, o ölkəni gizli şəkildə tərk edib. Vergisini də ödəyib gedə bilər. Bu da mümkündür".

**Müsahibimiz "bu cür açıqlama verməniz hökumətin bu məsələdə güzəştə getmədiyi mesajını vermək üçündürmü" sualına cavabda isə dedi:** "Siz necə istəyirsinizsə, elə fikirləşin. Mənə maraqlı deyil".

❑ **Sevinc TELMANQIZI**



# "Hafka"nın "müalicəsi" bitmir, bankı isə batır...

## "Bank of Azerbaijan"dan həm kredit, həm də faiz və cərimə borcları tələb olunur

**İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondu (SKMF) "Bank of Azerbaijan"ı məhkəməyə verib. Bu barədə fins.az Bakı Apelyasiya Məhkəməsinə istinadən xəbər verir. İddiaya səbəb bankın SKMF-dən cəlb etdiyi vəsaiti geri qaytarmamasıdır. Buna görə də "Bank of Azerbaijan"dan həm kredit, həm də faiz və cərimə borcları tələb olunur. Amma söhbətin konkret hansı məbləğdən getdiyi açıqlanmır.**

İşə ilk öncə bu il martın 4-də 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində, hakim Vüsalə Baxışovanın rəhbərliyi ilə baxılıb və SKMF-nin iddiası təmin olunub. Amma "Bank of Azerbaijan" qərardan apelyasiya şikayəti verib. İyunun 8-də Bakı Apelyasiya Məhkəməsində hakim Vidadi Məmmədovun rəhbərliyi ilə işə bir daha baxılıb və iddia qismən təmin edilib.

"Bank of Azerbaijan" son vaxtlar üzləşdiyi maliyyə problemləri ilə gündəmdədir. Bankın Müşahidə Şurasının sədri Hafiz Məmmədov hazırda ölkədə deyil.

"Hafka" ləqəbi ilə tanınan Hafiz Məmmədov barəsində həbs-qətimkan tədbiri Nəsimi Rayon Məhkəməsi tərəfindən mayın 18-də seçilib. Ancaq Hafiz Məmmədovu həbs etmək mümkün olmayıb. Belə ki, bu qərarın verilməsindən 2 gün əvvəl - mayın 16-da "Hafka" ölkədən qaça bilib. Hafiz Məmmədov Beynəlxalq Bankdan 100 milyonlarla manat kredit götürüb mənimsəməkdə ittiham olunur. H.Məmmədov bu xəbər yayıldıqdan sonra ölkədən qaçmadığını deyib: "Mənim ölkədən qaçmağım haqda KİV-lərdə yayılan informasiyalar tamamilə yalandır. Hazırda Londondayam, müalicə alıram. Ayağımda problemlər var. Yaxın günlərdə Bakıya dönəcəyəm".

"Hafka" onun cinayət məsuliyyətinə cəlb olunacağı haqda məlumatları da təkzib edib: ""Qayıdandan dərhal sonra sizinlə görüşməyə və bütün suallarınıza cavab verməyə hazıram".

Məlumata görə, "Hafka" Londonda deyil, Almaniyadadır.

Bu arada Beynəlxalq Bankda kredit qalmaqalına görə daha bir məşhur adam Abbas Abbasovun qardaşının da istintaqa cəlb olunduğu bildirilir.

Bu barədə "Azadlıq"a daxil olan məlumata görə, artıq Nadir Abbasov bu məsələ ilə bağlı DİN-in Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparılıb. Onun həbsi barədə qərar verilib-verilmədiyi dəqiq bilinmir. Məlumatda deyilir ki, Nadir Abbasovun da Beynəlxalq Bankdan külli miqdarda kredit götürdüyü iddia olunur.

❑ **Xəbər xidməti**

Yeni Müsavat
N 132 (6160) 19 iyun 2015

# Qovulmuş səfir prezidentin ətrafını hədəf aldı

**İslam Konfransı Təşkilatının Avropa Birliyindəki səfiri Arif Məmmədov postundan uzaqlaşdırılmasından sonra böyük siyasətə qoşulması barədə bəyanatına daha birini əlavə edib. Siyasət meydanına radikal müxalifətçi obrazında gələn Arif Məmmədov Azərbaycan prezidenti İlham Əliyevə müraciət edib.**




**Arif Məmmədov sosial şəbəkələrdə paylaşdığı müraciətində bəzi KİV-lərdə səfirlərin dövlət başçısına qarşı sövdələşməsi ilə bağlı məlumatlara toxunub. Sabiq səfir bu məlumatları "Prezident Administrasiyasındakı bir sıra məmurların uydurması adlandırıb:** "Provokasiya bu adamların qadir olduğu yeganə şeydir. Onlar bütün Azərbaycan xalqına, ağıllı və qabiliyyətli insanlara nifrət edirlər, özlərinin səbatsızlığına bunu nunla haqq qazandırmağa çalışırlar. Cənab prezident, cəsarətli qərarlar qəbul etmək və ölkəni bu çirkabdan təmizləmək lazımdır. Bu adamları Azərbaycan xalqı sevmir. Onlar sizin imicinizə zərbə vurur, dünyada ölkəmiz haqqında mənfi imic yaradırlar. Bu adamlar ölkənin xərçəng şişidir. Siz onları yaxşı tanıyırsınız. Bu cür adamlar sizin komandanızdakı sonuncu yaxşı kadrlara hücum edirlər".

**Arif Məmmədov ad çəkmədən bildirir ki, həmin məmurlar xarici işlər naziri başda olmaqla, ən yaxşı diplomatları hədəfə alıblar:** "Siz təcili qərarlar qəbul etməsəniz, onlar dayanmayacaqlar. Azərbaycan xalqı Sizin doğru qərar verəcəyinizə inanır".

Qeyd edək ki, ölkəni böhran vəziyyətindən çıxarmaq üçün qarşıdakı 10 ili əhatə edən proqram üzərində işlədiyini bəyan edən A.Məmmədov bir neçə gün əvvəl prezidentliyə namizəd olacağını da açıqlamışdı.

"Yeni Müsavat" ötən saylarında Arif Məmmədovu müxalifətçiyə çevirmək planı olduğu barədə bir neçə məqalə yazıb. Yazılarda vurğulanırdı ki, A.Məmmədovun "İbrahimbəyov ssenarisi" kimi, əvvəl ayrı-ayrı məmurları, sonra dövlət başçısının ətrafını, nəhayət, prezidenti hədəfə alacağı gözlənilirdi. A.Məmmədov addım-addım "müxalifətçilik yolunda" irəliləyir... O, "İbrahimbəyov variantına" - yəni onu canı-dildən müdafiə edən Milli Şuraya həmsədrliyə gətiriləcəyi və Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovla çox yaxın münasibətləri olması barədə xəbərlərə nədənsə reaksiya verməyib. Halbuki ölkə mediasını diqqətlə izləyən sabiq səfir barəsində yazılan ən xırda detallara dərhal öz şəxsi facebook səhifəsində reaksiya verməyə çalışır. Bu dəfə isə nədənsə susur və Abbas Abbasov da hələ ki özünü "ələ vermir".

# Ziya Məmmədov "qiyamçı" səfirin ailə dostu çıxdı

## Arif Məmmədovla Abbas Abbasovun və nəqliyyat nazirinin yaxın münasibətləri haqda ilginc məlumatlar; sabiq səfirin atasına Nəqliyyat Nazirliyində kim vəzifə verib?; Avropa Oyunları ərəfəsi şəhər nəqliyyatındakı külli miqdarda paydan məhrum edilən Məmmədovlar əsas vəzifə kürsüsünü də itirə bilərlər...

A.Məmmədovla A.Abbasovun və nəqliyyat naziri Ziya Məmmədovun yaxın münasibətləri haqda daha ilginc məlumatlar da var.

Belə ki, Arif Məmmədovun atası Zahid Məmmədov uzun illər Abbas Abbasovun himayəsi altında işləyib. Əslən Gürcüstandan olan Zahid Məmmədov Gəncə Alüminium Zavodunda sex rəisi vəzifəsini tutub, Abbas Abbasov isə həmin zavodun direktoru olub. Səfirin atasının 1989-1991-ci illərdə Gəncə Lokimotiv Deposunun rəisi vəzifəsində işləyən indiki nəqliyyat naziri Ziya Məmmədovla da dostluğu o zamandan yaranıb. Bu dostluq uzun illər davam edib. Ziya Məmmədov nazir təyin olunan zaman Zahid Məmmədovu işlədiyi Gəncə Ət Kombinatından işdən çıxarıblar. Ziya Məmmədov dostunu dəstəksiz buraxmayıb. Onu Nəqliyyat Nazirliyinin Təhlükəsizlik və fövqəladə hallar şöbəsinə məsul vəzifəyə gətirib. Zahid Məmmədov xeyli müddət Z.Məmmədovun rəhbərlik etdiyi nazirlikdə məsul vəzifədə çalışıb.

Qeyd edək ki, Ziya Məmmədovla Abbas Abbasovun yaxın dost və biznes ortağı olması yeni informasiya deyil. 2013-cü il prezident seçkisi ərəfəsi Kremlin yaratdığı "Milyarderlər İttifaqı"nın əsas siması olan Abbas Abbasov təkcə özünü deyil, onunla yaxın münasibətləri olan Telman İsmayılovu, eləcə də bu ikilinin yaxın dostu Ziya Məmmədovu da hər hansı formada, ittifaqa qoşmağa cəhdlər göstərmişdi.

A.Abbasovla Z.Məmmədovun prezident seçkiləri ərəfəsi telefon danışıqlarının deşifrə olunması barədə mətbuatda yayılan iddiaları nə nazir, nə A.Abbasov təkzib etmədi. Məlumatlara görə, Avropa Oyunları ərəfəsində şəhər nəqliyyatındakı külli miqdarda paydan məhrum edilən nəqliyyat nazirinin ətrafı "dışlandığını" hiss edərək, A.Abbasovla daha da yaxınlaşıb. Z.Məmmədovun oğlunun amerikalı milyarderlə şərikli mehmanxana-apartamentinin açılışının müəmmalı şəkildə ləngiməsi nazirin mövqeyinin zəifləməsi, Məmmədovlara inamın itməsi kimi izah edilir. İkinci bir tərəfdən, nazir oğlunun uzun illər milyonlar xərclədiyi Amerika siyasəti də artıq iflasa uğramış sayılır. Çünki ikinci ildir ki, rəsmi Vaşinqtonla Bakı az qala "müharibə" həddindədir və A.Məmmədovun rəhbərlik etdiyi Amerika-Azərbaycan Alyansı faktiki situasiyanı dəyişmək üçün heç nə edə bilmir.

İndi qalmaqallı səfirlə bağlı da xəbərlərin ortaya çıxması, Arif Məmmədovun bəyanatlarının arxasından yenə Abbas Abbasovun silutenin görünməsi, üstəlik, Ziya Məmmədovun da "qiyamçı" ilə ailəvi dostluğunun üzə çıxması hakimiyyəti nəqliyyat naziri ilə bağlı daha sərt qərar verməyə sövq edə bilər.

❑ **"Yeni Müsavat"**

# Bankir 250 milyonu oğurlayıb Bakıdan Dubaya qaçdı

**Rusiya "Sberbank"ının Dağıstandakı şöbələrindən birinin rəhbəri bankdan 250 milyon rublu oğurlayaraq qaçıb. Virtualaz.org saytı Dağıstan mənbələrinə istinadən xəbər verir ki, bankın Qasımkənd şöbəsinin rəhbəri olan Zeydullah Əhədullayev mayın 18-də Rusiya Mərkəzi Bankının kassa-hesablaşma mərkəzindən iri məbləğdə nağd pul çıxararaq yoxa çıxıb.**


Zeydullah Əhədullayev

Ertəsi gün "Sberbank"ın Moskvadan göndərilmiş komissiyası şöbəni yoxlayıb və məlum olub ki, bankın cəmi 70 milyon rublu *(1,4 milyon dollara yaxın)* və 90 min ABŞ dolları çatışmır. Həmin pulların Əhədullayev tərəfindən çıxarıldığı təsbit edilib.

Hüquq-mühafizə orqanlarından bildirildiyinə görə, Əhədullayev təxminən 1,5 milyon dollar ekvivalentində *(bankdan ümumən 250 milyon rubl aparılıb)* olan pulla birlikdə həmin gün Azərbaycan sərhədini keçib. Bakıya gələrək buradan birinci reyslə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinə uçub.

"Sberbank" və hüquq-mühafizə orqanları bu məlumatı bir aya yaxın gizli saxlamağa çalışıblar. Hadisə barədə təsadüfən Dağıstan polisinin qısa kriminal xronikasından məlum olub. Dağıstanlı bankirin iri məbləğdə nağd pulu Azərbaycana keçirərkən və Bakıdan Dubaya apararkən gömrükdə bəyan edib-etmədiyi məlum deyil.

# Dəmir adam



**Hüseynbala SƏLİMOV**

**Süleyman Dəmirəl də dünyasını dəyişdi. Biz siyasi publisistlər bir çox hallarda baş vermiş hadisələrə dərhal reaksiya verə bilmirik. Bunun subyektiv və obyektiv səbəbləri var. İndi onların haqqında danışmağın mənası yox...**

Bəlkə də əsas səbəb odur ki, jurnalist yazacağı mövzunu öz içindən, öz süzgəcindən keçirməli, necə deyərlər, onu bir növ bişirməlidir. Həm də elə adamlar olur ki, onlar haqqında yazmaq bir az çətin olur...

Böyük siyasətçilər də bu qəbildəndir. Daim üzdə olan, daim baxış bucağının mərkəzində sayrışan belə fiqurlardan yazmaq elə də asan deyil...

S.Dəmirəl haqqında yazmaq qərarına gələndə belə qət etdim ki, sadəcə, Türkiyə və onun siyasəti haqqında, bəlkə də siyasət haqqında yazmaq yetərlidir...

Mən uzun müddət Türkiyə siyasətçilərini başa düşə bilmirdim. Düşünürdüm ki, bu, necə dostluq və qardaşlıqdır ki, bunların elə gözü önündə Azərbaycanda demokratiyanı boğurlar, seçkiləri saxtalaşdırırlar, amma bunlar özlərini elə aparırlar ki, sanki heç nə baş vermir...

Uzun müddət bunu başa düşə bilmirdim ki, bilmirdim. Amma sonradan Türkiyənin tarixinə bələdçiliyim bir az artandan sonra mənə elə gəldi ki, bunu bir az anladım. Məsələ bundadır ki, Türkiyə özü son bir neçə ildə stabil vəziyyətə gəlib çatıb. Buna qədər hər şey olub - təyinatlı seçkilər də, təlatümlü dövlət çevrilişləri də, hökumət böhranları da...

Hətta bir dəfə oxudum ki, M.K.Atatürk Ə.Hüseynzadəyə millət vəkili olmağı təklif edibmiş. Amma Əli bəy bundan imtina edib və deyib ki, mən təkpartiyalı parlamentin üzvü ola bilmərəm. Buradan belə nəticə çıxardım ki, sən demə, Türkiyənin də ilk dövrlərində təyinatlı seçkilər dəbdə imiş...

Ona görə də indi onları başa düşmək elə də çətin deyil. Siz özünüzdən kiçik bir uşağın hərəkətlərinə, bəhanələrinə və şıltaqlıqlarına necə dözürsünüzsə, bu ölkə də indi Azərbaycan siyasətçilərinə eləcə dözür...

Ən qəribəsi də odur ki, Türkiyə siyasətindən danışanda dərhal yada düşən ilk adamlardan biri də dəmir adam - Süleyman Dəmirəl olur. Ona görə ki, çox böyük bir siyasi dövr bu adamın yaxından iştirakı ilə baş verib... İndi mən bu adam haqqında qiymət xarakterli bir şey yazmayacam. Çünki bunu hələ 1993-cü ildə yazmışdım. Bəli, o vaxt belə bir fikir yazmışdım ki, T.Özal gözəl iqtisadçıdır, S.Dəmirəl isə mahir siyasətçidir. Zaman mənim bu fikrimi korrektə etmədi, mən də bu fikirdə qaldım...

Bir neçə il bundan əvvəl Avropanın mərkəzində alovlanan Yuqoslaviya qitənin ən böyük problemi idi. Maraqlıdır ki, S.Dəmirəl bu alovun söndürülməsində, xüsusən də Bosniyada sabitliyin və sülhün bərqərar olması istiqamətində az iş görməmişdi. Yadıma gəlir ki, o vaxt Kremlin analitikləri yazırdılar ki, hətta Dəmirəl bizi bir neçə dəfə qabaqladı...

Bunun özü siyasətin və siyasətçinin miqyasından az şey demir. Onun bizim ölkə ilə bağlı yürütdüyü siyasətdən də hamı xəbərdardır... Amma mən əgər bu məsələ haqqında bir neçə il əvvəl bir müxalifətçi kimi yazırdımsa, indi bunu adi bir yazar kimi edirəm...

Mən bu haqda sizin bildiklərinizdən və S.Dəmirəlin özünün etiraflarından artıq bir söz deməyəcəm. Rusların bir sözü var ki, hər şey yaxşılığa doğru və yaxşı istiqamətə doğru baş verir... Təbii, demirəm ki, 93-cü ildə baş verənlər yaxşılığa doğru addım idi. Əsla belə düşünmürəm. Ona görə ki, ürəyimdəki müxalifətçi odu hələ sönməyib...

Amma bəzən bir şey ona görə baş verir ki, sadəcə, o, baş verməli idi. Bu yaxınlarda siyasi oyunlar haqqında bir yazı yazdım və orada qeyd elədim ki, bir tanışım məni harada görürdü dərhal soruşurdu ki, hələ oralarda - müxalifətdəsən? Axırda da qayıdırdı ki, əşi, vallah, hamısı oyundur! Mən bu adama adətən cavab vermirdim, gülümsəməklə, zarafatla sovuşdururdum...

Amma elə özüm də bilirdim ki, bu, böyük bir oyundur - 1988-ci ildən başlanan və bir neçə il davam edən oyun...

Bu oyunun finalı da elə 93-cü ilin hadisələri idi. Və bu oyunda oyunçuların coğrafiyası heç də Azərbaycanla məhdudlaşmırdı... Amma bu da məni dilxor etmir, çünki hamı nə uğrunda oynadığını çox yaxşı bilirdi və kim nəyə can atırdısa ona da çatdı...

Həm də bəzən siyasəti başa düşmək üçün bizim hövsələmiz və səbrimiz çatmır. Ona görə də burada S.Dəmirəlin bir dəfə siyasət haqqında dediyi bir fikir yadıma düşür: "siyasət səbir tələb edir".

Ona görə də səbirli olaq. Və dünyadan köçmüş bütün insanlara rəhmət diləyək!

# PKK-ya qoşulan azərbaycanlı tələbələrlə bağlı yeni məlumatlar

**"Xarici İşlər, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri Ankaradakı Azərbaycan səfirliyi vasitəsilə Türkiyədə təhsil alan üç azərbaycanlı tələbənin PKK sıralarına qoşulmaları ilə bağlı məsələni araşdırır". Bunu BBC-nin Azərbaycan xidmətinə Azərbaycan Təhsil Nazirliyinin Türkiyədəki təmsilçisi Nəcibə Nəsibova deyib.**

## Təhsil Nazirliyinin Türkiyədəki təmsilçisi: "Xarici İşlər, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri üç azərbaycanlı tələbənin PKK sıralarına qoşulmaları ilə bağlı məsələni araşdırır"




İyunun 15-də Youtube şəbəkəsində yayılmış videoçarxda Türkiyədə təhsil alan üç tələbənin Türkiyə və Qərbdə terrorçu qrup kimi tanınan PKK təşkilatının sıralarına keçdiyindən bəhs edilir.

Özlərini "Yıldırım Beyazıt Universitetinin sosioloji bölümündə oxuyan Feremez Azeri", "Turqut Özal Universitetinin işlətmə fakültəsinin tələbəsi Babek Hakır" və "Balıkesir Universitetinin tələbəsi Azad Mirkan" kimi təqdim edən gənclər PKK sıralarına keçmələrinin səbəblərindən danışıblar.

"Tələbələrdən Sənan Güləhmədov və Mobil Tağızadənin valideynləri övladlarının yoxa çıxması ilə bağlı səfirliklə telefon vasitəsilə əlaqə saxlayaraq köməklik göstərilməsini xahiş edib. Buna müvafiq olaraq da səfirlik Türkiyənin müvafiq qurumlarına müraciət edib" - deyə Azərbaycanın Ankaradakı səfirliyinin mətbuat katibi Elbəy Əliyev bildirib.

Lakin səfirlikdən hadisə ilə bağlı geniş şərh vermək istəməyiblər. Videoçarxda Sənan Güləhmədov özünü Feremez Azeri, Mobil Tağızadə isə Azad Mirkan kimi təqdim edirlər.

Səfirliyin təhsil məsələləri üzrə müşaviri Nəcibə Nəsibova isə deyir ki, internet resurslarında yayılmış videogörüntüdə danışan üçüncü tələbənin adı Məhəmmədhüseyn Rüstəmovdur.

O, məlum videoçarxda özünü "Turqut Özal Universitetinin işlətmə fakültəsinin tələbəsi Babek Hakır" kimi təqdim edib. Təhsil müşaviri tələbələrlə bağlı bəzi təfərrüatlardan da bəhs edib.

**Nəcibə Nəsibova deyir ki, adıçəkilən hər üç tələbə universitetlərin II kursunda oxuyublar və "dövlət imtahanından keçmədən, özəl təhsil şirkətlərinin xətti ilə Türkiyəyə gəliblər. Onun sözlərinə görə, fəaliyyətinin əsas hissəsi kimi, tələbələrin hamısı ilə məşğul olur.**

"Şəhər-şəhər gəzirik, universitetlərə, yataqxanalara gedirik, tələbələrin hamısı ilə görüşür, öz aralarından tələbə təmsilçiləri seçib onlarla sıx əlaqə saxlayırıq. Amma bu tələbələr əvvəldən bizim tələbələrdən uzaq gəzirdilər. Mənə elə məlumatlar gəlirdi ki, onlar siyasi görüşlü tələbələrin arasında olurdu. Tələbələrimizdən soruşurdum ki, onları tanıyırsınızmı, deyirdilər, bizimlə otub-durmurlar, daha çox kürdlərin arasında olurlar. Bunlar qeyri-dövlət xətti ilə, şirkətlərin vasitəsilə attestatla burda yerləşən tələbələrdir. Bunların heç biri dövlət xətti ilə imtahan verməyib" - Nəcibə Nəsibova deyib.

Təhsil müşaviri PKK sıralarına keçdiklərini bəyan edən tələbələrdən dərs davamiyyəti və qiymətləri zəif olan "savadsız tələbə" kimi bəhs edib.

Tələbələrin verdiyi məlumata istinad edən N.Nəsibova deyir ki, Məhəmmədhüseyn Rüstəmov Şamaxıdakı bir axundun oğludur.

BBC müxbiri axundla telefonla əlaqə yaratmağa çalışsa da telefona cavab verən şəxs "mən o adam deyiləm" deyərək telefonu qapadıb.



# Həbsdən azad edilən NİDA-çını yenidən məhkəməyə çağırırlar

## Şahin Novruzludan 303 AZN tələb olunur - ekspertizanın pulunu gəncə ödətmək istəyirlər

NİDA hərəkatının üzvü, keçmiş məhbus Şahin Novruzlunun məhkəməyə məcburi gətirilməsi barədə qərar var. İyunun 17-də Ş.Novruzlunun evlərinə Nəsimi Rayon Məhkəməsinin qərarı göndərilib. Qərarda Şahin Novruzlu borclu şəxs kimi göstərilib və iyunun 25-də onun nümayəndəsi ilə məhkəmə zalında olması istənilir.

Buna səbəb isə ekspertiza xərcləridir. Belə ki, həbs olunan zaman Ş.Novruzlu və bir neçə NİDA-çının evindən götürüldüyü deyilən "Molotov kokteyli" və narkotik maddə ekspertiza edilmişdi. 2014-cü ildə mayın 6-da 8 NİDA-çıya hökm oxunan zaman ekspertiza xərclərinin də təqsirləndirilən şəxslərin ödəməsi qərarı verilmişdi.

Ekspertizanın məbləği 303 AZN-dir. Ş.Novruzlu daha öncə bu qərardan narazı olduğu üçün təkrarən şikayət edib. Amma Ali Məhkəmə bu qərarı qüvvədə saxlayıb. Ş.Novruzlu vəkili ilə məsləhətləşmə apardığını, məhkəməyə gedib-getməməklə bağlı qərarı bundan sonra verəcəyini dedi.

Şahin Novruzlu həbs olunan zaman MTN bildirmişdi ki, onun evindən 90 min manatdan çox pul da götürülüb. Məhkəmə ötən il mayın 6-da hökm çıxaranda həmin məbləği Azərbaycanda inqilab üçün xarici qüvvələrin verdiyini və pulun dövlət hesabına keçirilməsi qərarını vermişdi. Şahin Novruzlunun ailə üzvləri isə həmin məbləğin bir qisminin iş qurmaq üçün borc alındığını, bir qismininsə müalicə pulu olduğunu bildirmişdi.

NİDA-çı fəallar -Məmməd Əzizov, Bəxtiyar Quliyev, Şahin Novruzlu, Rəşadət Axundov, Üzeyir Məmmədli, Rəşad Həsənov, Zaur Qurbanlı və İlkin Rüstəmzadə 2013-cü ilin mart-may aylarında həbs olunmuşdular.

Bakı Ağır Cinayətlər Məhkəməsi onları 2013-cü il 10 mart tarixli etiraz aksiyasında kütləvi iğtişaşlar planlaşdırmaqda, qanunsuz partlayıcı maddə və narkotik saxlamaqda və xuliqanlıqda təqsirli bilərək, 6 ildən 8 ilədək azadlıqdan məhrum etmişdi.

İttihamlarla razılaşmayan gənclər siyasi motivlərlə həbs olunduqlarını deyirlər.

❑ SEVİNC

# "Rusiya təcrid edilir və zəiflədilir"

## Şahin Cəfərli: "Rusiya Putindən xilas olmasa, onu daha ağır günlər gözləyir..."

**Haaqa Arbitraj Məhkəməsində Rusiya əleyhinə fantastik məbləğdə cərimə kəsilib. "YUKOS" neft şirkətinin keçmiş səhmdarlarının iddiası üzrə təxminən 10 il davam edən məhkəmənin hökmü ilə Rusiya dövləti 50 milyard dollar cərimələnib.**

"YUKOS" şirkəti vergidən yayınma və mənimsəmə ittihamı ilə 2003-cü ildə həbs edilən və 10 il sonra azadlığa buraxılan yəhudi əsilli Rusiya vətəndaşı Mixail Xodorkovskiyə aid olub. O, öz hissələrini "Group Menatep Limited"ə (GML) satıb. Xadarkovski həbs olunanda "YUKOS"un əmlakı da dövlətin xeyrinə müsadirə olunub.

Rusiyanı Haaqa Arbitraj Məhkəməsinə verən GML olub. Səhmdarlar qrupu 114 milyard dollar ziyana düşdüyünü bildirib. Məhkəmə qərara gəlib ki, Rusiya "Yukos"un əmlakını müsadirə etməklə Beynəlxalq Enerji Xartiyasının müddəalarını pozub. Buna görə də "Yukos"un keçmiş səhmdarlarına 50 milyard dollar, GML-ə isə əlavə 65 milyon dollar təzminat ödəməlidir.

Qərara əsasən, Hulley Enterprises (Kipr) 39,9 milyard, Yukos Universal (Men adaları) 1,8 milyard, Veteran



Şahin Cəfərli

Petroleum (Kipr) 8,2 milyard dollar almalıdır.

Rusiya tərəfi qərara etiraz edib və apelyasiya şikayəti verəcəyini bildirib. Apelyasiya şikayəti üçün Rusiyanın 10 gün vaxtı var.

İddiaçılar isə çıxarılan qərarı ədalətli sayıb. Rusiya rəsmiləri ölkənin cəriməni ödəməyəcəyini desə də, beynəlxalq qanunlar bunun mümkünsüz olduğunu söyləməyə əsas verir. Qərarda aydın şəkildə yazılıb ki, yanvar ayının 15-nə qədər ödəmə başlanılmalıdır. Üstəlik, Rusiya dövləti cərimələndiyi üçün iddianın ödənilməsi üçün Rusiya xaricdə olan daşınan və daşınmaz əmlakı, aktivləri ilə cavabdehdir.

Ekspertlər bildirir ki, Avropa Birliyi və ABŞ-ın sanksiyaları ilə üzləşən Rusiyanın 50 milyard dollar cərimələnməsi ölkəyə əlavə problemlər yaradacaq.

**Bu barədə fikirlərini bölüşən siyasi ekspert Şahin Cəfərli bildirib ki, Avropada YUKOS-un ekspropriasiyası (sahiblərinin əlindən alınması) işi ilə bağlı artıq Rusiya dövlətinin əmlakına həbs qoyulmasına başlanıb. İlk addım Belçikada atılıb və Rusiya dövlətinin bu ölkədəki aktivlərinə (diplomatik immuniteti olanlar istisna edilməklə) məhkəmə qərarı ilə həbs qoyulub. Proses yəqin ki, digər Avropa ölkələri və ABŞ-da davam edəcək:** "Bu iş üzrə Rusiyaya qarşı beynəlxalq məhkəmə instansiyalarının çıxardığı iki ciddi qərar var. Avropa İnsan Haqları Məhkəməsi şirkətin keçmiş səhmdarlarının iddiası əsasında Rusiyanı 1 milyard 866 milyon dollar məbləğində təzminata məhkum edib. Lahey (Haaqa) beynəlxalq məhkəməsinin qərarı isə daha sərt olub. Rusiya bu qərarla düz 50 milyard dollar məbləğində cərimələnib. Şübhəsiz ki, bu məhkəmə qərarlarına dünyadakı geosiyasi proseslər də öz təsirini göstərib. Rusiya təcrid edilir və zəiflədilir. Dünyadakı sürətli dəyişiklikləri doğru oxuyub dəyərləndirmək lazımdır. Uduzmağa məhkum olan tərəfin yanında yer almaq cəhənnəmə gedənə yoldaş olmağa bərabərdir".

Ş.Cəfərli hesab edir ki, yaxın gələcəkdə Ukrayna dövlətinin Krımın ilhaqı və Donbas müharibəsi ilə bağlı qaldırdığı və qaldıracağı məhkəmə iddiaları əsasında da qərarlar veriləcək. Odur ki, Rusiya Putindən xilas olmasa, onu daha ağır günlər gözləyir.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015

**Son vaxtlar Milli Şura rəhbərliyi "Yeni Müsavat" qəzetinə qarşı şər-böhtan kampaniyası aparır. Bu qurum və onun rəhbərliyi haqda yazdıqlarımızdan sonra AXCP-nin və MŞ-nin hücumlarına məruz qalmışıq. AXCP-nin nəzarətində olan mətbu orqanda "Yeni Müsavat" qəzetinin baş redaktoru haqda heç bir normaya sığmayan, etik və əxlaq ölçülərini gözləməyən yazılar dərc olunur.**



# "Milli Şuradakılar mətbuat yırtıcılarıdır"

## Azər Ayxan: "Adlarını demokrat qoyublar, amma fərqli fikrə, tənqidi yazılara YAP-çılardan da dözümsüzdülər"



"Azadlıq" qəzetinin son nömrələrindən birində Milli Şurada təmsil olunan bir neçə siyasətçinin "Yeni Müsavat" qəzetinin yazdıqlarına mövqeyi çap olunub. Milli Şuranın rəhbərliyi yazdıqlarımıza "zəhmətkeş cavabı" verib.

**"Yeni Müsavat" qəzetinin baş redaktorunun 1-ci müavini Azər Ayxan əməkdaşımızla söhbətdə dedi ki, Milli Şura rəhbərliyinin bu davranışı onun yadına sovet hakimiyyəti illərini salır:** "Sovet hakimiyyətini, onun siyasətini tənqid edən dövlətləri, ayrı-ayrı siyasətçiləri, mətbuat orqanlarını bu şəkildə tənqid edərdilər. "İmperialist qüvvələr Sovet İttifaqına qarşı birləşib mübarizə aparır" deyə həşir qopardardı telekanallar, qəzetlər. İndi "Azadlıq" qəzetindəki yazılara baxıram, yadıma Brejnev, Andropov, Çernenko dövrü düşür. Milli Şuraya yığışanların dünyagörüşü Brejnev dövründən bu yana inkişaf etməyib. Sanki bu adamları ötən əsrin 70-80-ci illərində xüsusi kameralarda dondurublar, indi-indi donlarını açıb cəmiyyətə buraxıblar. Onlar da müasir şərtləri heç cür qəbul edə bilmirlər, yenə 30-35 il öncənin siyasi stilində danışır, yazırlar".

**Azər Ayxan bildirdi ki, bütün dünyada mətbuatın istənilən siyasətçi və siyasi təşkilat haqqında tənqidi və təftişçi yazılar yazmaq haqqı var:** "Mətbuatın işi zatən budur. Biz sovet mətbuatı deyilik ki, təbliğat-təşviqat işləri ilə məşğul olaq. Biz fəaliyyətimizi müasir dövrlə uzlaşdırırıq. Qərb stilistikasında fəaliyyət göstərməyə çalışırıq. Hazırladığımız materiallarda tənqid də olacaq, təftiş də. Biz ayrı-ayrı adamların zövqünü oxşamaq üçün qəzet buraxmırıq. Hətta vaxtilə tərəfini tutduğumuz, müdafiə etdiyimiz siyasətçiləri də yanlış davranışlarına görə tənqid edəcəyik və edirik. Bu əməlimizə görə bizi az qala vətən xaini adlandırmaq gerizəkalılıqdır. Milli Şura və orada təmsil olunan əksər siyasətçilərin bir qəzeti yazdıqlarına görə bu cür mənəvi-psixoloji terrora məruz qoyması birmənalı şəkildə avtoritarlıqdır. Adını demokrat qoyanlar fərqli və tənqidi fikrə bu cür aqressiv yanaşmamalıdırlar. Belə demokratlıq, belə demokratiya olmur. Qəzetin işi yazmaqdır. Siyasətçi mətbuata qarşı dözümlü olmalıdır. Olmursa, demək, o, tip etibarı ilə demokrat deyil, potensial mətbuat yırtıcısıdır. Milli Şura və AXCP rəhbərliyi bu gün məhz mətbuat yırtıcılığı ilə məşğuldur. Azərbaycanın ən nüfuzlu qəzetini, saytını düşmən elan ediblər. Niyə? Çünki onları tənqid edirik. Avantürist siyasətlərini dəstəkləmirik. AXCP-Milli Şura cütlüyünün başında dayananlar deyirlər ki, ya bizim yanımızda olacaqsan, ya da səni mənəvi terrora məruz qoyacağıq".

> **"Kim qəzetdə özünə sərf etməyən yazı oxuyursa, vəssalam, işin bitdi; ya ermənipərəst qüvvələrin dəyirmanına su tökən elan olunursan, ya da iqtidardan pul, tapşırıq alan damğası vurulur sənə. Bizə başqa alternativ buraxmır ki, siyasətçilərimiz"**

**Baş redaktor müavini bildirdi ki, Milli Şurada cəmləşənlər demokratiya testindən keçə bilmirlər:** "Adlarını demokrat qoyublar, amma fərqli fikrə, tənqidi yazılara YAP-çılardan da dözümsüzdülər. Onlar bu testdən keçə bilmədilər, necə deyərlər, sinifdə qaldılar.

Milli Şuradakılar tez-tez Qərb standartlarından danışırlar. Amma bu adamların təfəkkürü feodal təfəkkürüdür. Özlərinin bir normal fəaliyyəti yoxdur, 2 min adamı bir yerə toplamaq qabiliyyətinə malik deyillər, bunu da ört-basdır etmək üçün Qərb mətbuatında Azərbaycan iqtidarı haqda gedən yazıların tərcüməsini verirlər nəzarətlərindəki qəzetdə. Başqa-başqa ölkələrin qəzetlərində Allah bilir hansı məqsədlərlə yazılmış məqalələrin arxasında gizlənib müxalifətçilik edirlər. Amma həmin qəzetlər təkcə bu iqtidarı tənqid etmir ki... Öz ölkələrinin iqtidarlı-müxalifətli siyasətçilərini də amansız şəkildə tənqid edir, bəzən hətta təhqirə məruz qoyurlar. Qərbdə mətbuat daha aqressivdir, güzəştsizdir, siyasətçilər isə mülayim və güzəştli. Bizdə isə bunun tam əksidir. Kim qəzetdə özünə sərf etməyən yazı oxuyursa, vəssalam, işin bitdi; ya ermənipərəst qüvvələrin dəyirmanına su tökən elan olunursan, ya da iqtidardan pul, tapşırıq alan. Bizə başqa alternativ buraxmır ki, siyasətçilərimiz".

**A.Ayxanın sözlərinə görə, Qərb jurnalistikası hətta bilərəkdən qərəzlə məqalələr də yazır:** "Fəqət heç bir qərbli siyasətçi özünə rəva bilib o qəzeti və ya qəzetləri harasa, kiməsə işləməkdə suçlamaz. Bunu normal qarşılayar, dözüm göstərər. Daha bizim şuraçılar kimi həşir qoparmazlar".

**Azər Ayxan dedi ki, hakimiyyət onun əleyhinə olan fəaliyyəti, fikirləri ermənipərəst qüvvələrin işi adlandırır, müxalifət isə onu tənqid edənləri hakimiyyətə işləməkdə suçlayır:** "Bu yanaşma Azərbaycanın gələcəyini təhdid edir. Xalq və onun bir parçası olan biz qəzetçilərə çox pis gələcək vəd edir. Bizim iqtidarımızla müxalifətimiz arasında elə ciddi fərq yoxdur. Sadəcə, müxalifətçilərin ayıbını iqtidarda olmamaları örtür. Mən arzu edirəm ki, bu ayıbın üstü heç vaxt açılmasın. O vaxta kimi ki, bu ölkədə gerçək demokratik siyasi qüvvə yetişsin".

❑ **RÖYA**

# İlahiyyatçıdan Sərdar Cəlaloğluna irad gəldi

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu "Qurani Kərim"ə izah yazdığını bildirib. Eyni zamanda o, modern.az saytına müsahibəsində Azərbaycanda fətva verə biləcək din xadiminin olmadığını qeyd edib.**



Hacı Şahin Həsənli

"Məşədi Dadaş" məscidinin axundu, ilahiyyatçı Hacı Şahin Həsənli Sərdar Cəlaloğlunun fikirlərinə münasibət bildirib.

O, öncəliklə "Quran"a izah yazmaqla bağlı məsələyə toxunub və müəyyən mənada Sərdar Cəlaloğlunu tənqid edib:

""Quran"a izah yazmaq sırf din xadimlərinin, ilahiyyatçıları işidir. Müqəddəs kitabımızı təfsir etmək üçün bir sıra elmləri, o cümlədən ərəb dilini mükəmməl bilmək lazımdır. "Quran"ı hər bir kəs təfsir edə bilməz".

Hacı Şahin Həsənli bildirib ki, bu gün çoxları heç fətvanın nə olduğunu da başa düşmür.

"Biz din adından danışırıq, din hökmlərini insanlara çatdırırıq, müəyyən fikirlər söyləyirik. Bunları isə fətva adlandırmaq olmaz. Amma mən deməzdim ki, Azərbaycanda fətva verməyə layiqli insan yoxdur. Kifayət qədər savadlı, dini mükəmməl bilən ilahiyyatçılar var. Sərdar Cəlaloğlu isə nə demək istəyir, bunu anlamıram".

# Dəmirəlin dəfnində Azərbaycanı Oqtay Əsədov təmsil edəcək

**Milli Məclisin sədri Oqtay Əsədov Türkiyənin 9-cu prezidenti, mərhum Süleyman Dəmirəlin dəfn mərasimində iştirak edəcək. Bu barədə modern.az saytına Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğlu məlumat verib. O bildirib ki, Oqtay Əsədov iyunun 18-də axşam qardaş ölkəyə yola düşüb.**



Oqtay Əsədov

Qeyd edək ki, Süleyman Dəmirəlin dəfn mərasimi şənbə günü keçiriləcək. O, doğulduğu İsparta vilayətində torpağa tapşırılacaq.

91 yaşlı Süleyman Dəmirəl iyunun 17-də səhər saatlarında ürək və tənəffüs orqanlarındakı çatışmazlıq səbəbindən dünyasını dəyişib. Onun ölümü ilə əlaqədar Türkiyədə 3 günlük matəm elan olunub.

# "Cəmil Həsənli AMİP-ə də xəyanət edib"

## Niyaməddin Orduxanlı: "Cəmil Həsənli millət vəkili olduğu dövrlərdə hər il Fəxri Xiyabana gedib"

**Milli Şuranın sədri Cəmil Həsənli ilə "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu arasında gedən media polemikasında Cəmil Həsənli BAXCP sədri Qüdrət Həsənquliyevin də adını çəkib. BAXCP sədrinin siyasi və ictimai məsələlər üzrə müavini Niyaməddin Orduxanlı bununla bağlı mətbuata açıqlama verərək deyib ki, Cəmil Həsənli həmişə öz maraqlarını düşünən adam olub: "Bu adam bu yaşına qədər bir neçə partiya dəyişib. 1993-cü ildə Cəmil Həsənli AMİP-də olub. Prezident Aparatında vəzifəyə təyin edildiyinə görə AMİP-ə də xəyanət edib. Daha sonra Əli Kərimlinin "Yurd"unda yer alıb. Əli Kərimlinın Milli Məclisi boykot qərarına əhəmiyyət verməyən Həsənli gedib oturdu parlamentdə. Bundan sonra Əli Kərimli onu partiyadan qovdu".**

BAXCP sədrinin müavini bildirib ki, Cəmil Həsənli bu qovulmadan sonra hakmiyyətin nazirlərinin maliyyə hesabına kitablar nəşr etməyə başladı: "Həmin pulların hesabına bu adam kitablarında "İlham Əliyevin liderliyi ilə Azərbaycan Qafqazın lider dövlətinə çevrilib" yazırdı. Millət vəkili olduğu dövrlərdə hər il Fəxri Xiyabana gedib mərhum Heydər Əliyevin məzarı qarşısında baş əyirdi. Onun haqqında kitablarında yazırdı. Bütün bunlar bir gerçəklikdir. Cəmil Həsənli elə bir adamdır ki, istənilən vaxt Əli Kərimlini də ayaqları altına atıb, öz maraqlarını qoruyar. Şəxsən mən bunu gözləyirəm də. Bunu Əli Kərimli də yaxşı bilir".

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015



# Kəlbəcərdə badminton

Zamin HACI
zaminhaci@gmail.com

"Mən sərxoş olanda heç cür dəqiq hərəkət edə bilmirəm və bir klounun edə biləcəyi ən qorxunc yanlışlığı edirəm: öz tryuklarıma gülürəm"

***(Haynrix Böll, "Klounun gözləriylə")***

**Milli tolerantlıq və Umberto Eko-ya yapçılıq təbliğatı aparmaq üzrə dövlət müşaviri Kamal Abdulla Azərbaycan Badminton Federasiyasının sədrliyindən uzaqlaşdırıldı, onun yerinə təzə təhsil nazirimiz Mikayıl Cabbarov qoyuldu. Bu qərara ən çox sevinənlər rayonlardakı mollalar və keşişlər olmuşdur. Sən demə, Kamal müəllim onları badminton oynamağa məcbur edirmiş. Hətta bir dəfə Slavyan Universiteti ilə Lənkəran məscidinin əmək kollektivi arasında Milli Qurtuluş Günü münasibətilə badminton yarışı keçirilibmiş. Hacı Şahin Həsənli yarışdan qalib çıxmışdır.**

İndən belə isə məktəblərdə badminton oynamaq zəruri dərs proqramı çərçivəsinə salınacaqdır. Bəlkə çoxu bunun mənasını bilmir, badminton qədim, ulu köklərə malik, gəncləri və yetişməkdə olan kal nəslimizi Qarabağ uğrunda döyüşlərə səsləyən idman növüdür. Burada ortadan tor çəkilir, yarışan tərəflər tennis raketkasına bənzər bir həcəmət ilə volan adlanan, türkün məsəli, dalı lələkli balaca topu ora-bura qovmaqla məşğul olur. Etiraf edim ki, mən bizim Azərbaycanda zaman-zaman küçə və parklarda badminton oynamağa cəhd göstərən xeyli insanlar görmüşəm, ancaq hər dəfə oyun yalnız bir zərbədən ibarət olmuşdur. Çünki bu dalı lələkli topu düzgün istiqamətə yönəltmək olduqca çətin bir şeydir. Uşağa badminton oyunu təşkil eləmək ona işgəncə verməkdən başqa bir şey deyildir - mənim nəzərimdə.

İnşallah, indi Mikayıl müəllim bunun öhdəsindən gələr və uca millətimiz nəhayət, dalı lələkli topla oynamağı öyrənər. Prinsipcə, elə bizim məktəblər də uşaqların taleyi ilə badminton oynayırlar və uşağa raketka ilə bir dənə qoyurlar, heç bilmirsən uşaq həyatın hansı dərəsinə gedib düşəcəkdir.

Hərçənd bəzi bisavadlar, erməni dəyirmanına bu isti yay günlərində su tökən qara qüvvələr vardır ki, onların mövqeyinə görə gərək Mikayıl müəllim daha döyüşkən bir idman növündə respublikamızın idman şərəfini qoruyardı. Misal üçün, Barselona öküz döyüşü növündə. Ya da nə bilim, stend atıcılığında. Bəd ayaqda ox atıb, qılınc oynatmaqda. Hətta ən dəhşətli, baxan insanı məhv edən, qorxunc idman növü olan sinxron üzgüçülük də bizə daha çox lazımmış, nəinki badminton.

Bunlar, əlbəttə, boş söhbətlərdir. İlk növbədə ona görə ki, bizim işğal olunan əraziləri qaytarmağımızdan ötrü idman eləmək lazım deyil. Rayonlar çoxdan bizdədir, xəbəriniz olsun. Sadəcə, hökumət xəbər vermir ki, ürəyi xəstə olanlar sevindiyindən ölməsin. Yavaş-yavaş deyirlər. Örnək istəyirsinizsə, o zaman cənab prezidentin iki gün qabaq - 16 iyun 2015-ci ildə imzaladığı sərəncamı diqqətlə oxuyun. Orda yazılmışdı ki, Kəlbəcər rayonundakı Qaragüney kəndinin adı dəyişdirilib Tağılar, Alçalı kəndi Günəşqaya, Tirkeşəvənd kəndi Alıbəyli adlansın. O cümlədən, Laçın rayonundakı Ağbulaq kəndi Sarıbaba adlandırılsın.

Daha sənə nə lazımdır? Əgər Kəlbəcər və Laçını almasaq, ordakı yurd adlarını dəyişdirməyin mənası nə idi? Qoy alçaq ermənilərin ürəyi partlasın. Laçına Berdzor deməklə iş düzəlmir ki? Bir sərəncamla biz kəndlərin adını dəyişdiririk, lazım gəlsə İrəvana türk bayrağı taxarıq! Qeyd elədiyim kimi, əslində rayonları qaytarmışıq, özümüz xəbər vermirik. Bir az da təvazökarlıq rol oynayır. Onsuz da bütün dünya bizim Böyük Şorda olimpiada keçirməyimizi görüb, daha artıq paxıllıq yaratmağa ehtiyacımız yoxdur. Biz indi Kəlbəcərin badminton komandasını formalaşdırırıq.

Məncə, növbəti sərəncamda Basarkeçər rayonunun adını da dəyişdirməliyik. Ermənilərin ərazidən qaçması münasibətilə Qaçarkoçər qoymaq olar.

# Kremlin Bakıya qaz şantajının ikinci hissəsi işə düşür

## Moskva Ankara ilə "Türk axını" danışıqlarını dayandırır, lakin kəmərin dəniz hissəsinin inşasını da israrla davam etdirir; Türkiyədə 7 iyun seçkiləri, nə qədər qəribə olsa da, Azərbaycan üçün əlverişli durum yaradıb, ancaq...

**Türkiyədə iyunun 7-də keçirilən parlament seçkilərindən sonra yeni hökumətin qurulması ilə bağlı ortaya çıxan qeyri-müəyyənlik maraqlı situasiya yaranıb. Söhbət ilk növbədə rəsmi Ankaranın xarici siyasət kursundan, o sırada energetika sahəsindəki öhdəlikləri yerinə yetirmə qabiliyyətindən gedir.**

Yeni hökumətin qurulması ləngidikcə bu yöndə qətilik və müəyyənliyin yaranması da ləngiyir. Deyilə bilər ki, ölkənin əsas siyasi qüvvələri xarici siyasətə bağlı prioritet məsələlərdə, o cümlədən strateji neft-qaz layihələri məsələsində eyni mövqedədir. Lakin təzə hökumətin gecikməsi bütün hallarda tərəfdaş ölkələrdə bəzi haqlı şübhələrin qalmasına sövq-təbii rəvac verir.

***

Artıq konkret əlamətlər də var. Xəbər verildiyi kimi, Türkiyənin energetika naziri Taner Yıldız Rusiyaya dünənə nəzərdə tutulan kritik səfərini qəfil ləğv edib. Virtualaz.org saytı Türkiyə qaynaqlarına istinadən xəbər verir ki, Taner Yıldızın BOTAŞ-ın icraçı direktorunun səlahiyyətlərini icra edən Mehmet Konukun müşayiəti ilə Rusiyaya səfəri, dünən Sankt-Peterburqda işə başlamış Beynəlxalq İqtisadi Forum çərçivəsində bu ölkənin energetika naziri Aleksandr Novak və "Qazprom" rəhbəri Aleksey Millerlə danışıqları nəzərdə tutulubmuş.

Məlumata görə, Peterburq danışıqları iyunun 13-də prezidentlər Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğan arasında Bakıda keçirilmiş müzakirələrin davamı olmalı imiş. Bəllidir ki, həmin görüşdə Putinlə Ərdoğan "Türk axını" qaz kəməri layihəsinə *(əvvəlki adı "Cənub axını")* dair danışıq aparıblar.

Rusiya mənbələri xəbər verib ki, Türkiyə tərəfi bu layihəyə dair əvvəl əldə edilmiş razılaşmalara sadiqdir və kəmərin Türkiyə hissəsinin marşrutu artıq dəqiqləşdirilib.

Türkiyənin enerji çevrələrindəki qaynaqlar bildirir ki, Rusiya "Türk axını" kəmərinə dair Ankara ilə ikitərəfli razılaşmanın bu ayın sonuna qədər imzalanmasında israr edir.

Dünən bununla bağlı rusiyalı nazir Novak bir daha açıqlama verib. "Rusiya və Türkiyə "Türk axını"nın tikintisi ilə bağlı hüquqi sənədləri iyunun sonunadək hazırlamalıdır" deyən nazirin sözlərinə görə, hazırda əsas müzakirə mövzusu qaz kəmərinin ilk parçası olan dəniz hissəsinin tikintisidir: **"İyunun sonunadək biz Qara dəniz hissəsində tikinti üçün icazə almalıyıq. Bu, əvvəllər "Cənub axını"na verilən razılıq üzərində qurulmalıdır. Bundan başqa, Türkiyənin ərazi sularında axtarış işləri üçün də razılığın alınması önəmlidir".**

***

Açıqlamadan da göründüyü kimi, Rusiya tərəfinin, "Qazprom"in gözləməyə vaxtı yoxdur. Rusiyanın qaz nəhəngi 2018-ci ildən Ukrayna üzərindən qaz tranzitini dayandıracağını elan edib və bu dəhlizlə nəql olunan bütün qazı "Türk axını"na yönəldəcəyini bəyan edib. Həmçinin "Qazprom" Türkiyə ilə ikitərəfli razılaşmanın imzalanmasını gözləmədən dənizin dibindən kəmərin çəkilməsi üçün işlərə başlayıb.

Lakin Türkiyədə iyunun 7-də keçirilən parlament seçkilərində AKP-nin hakim çoxluğu itirməsi vəziyyəti mürəkkəbləşdirib. Məlum olduğu kimi, AKP təkbaşına hökumət formalaşdıra bilmir, koalision hökumət isə kifayət qədər qəliz iş kimi görünür. "Milliyet" qəzetinin yazdığına görə, Türkiyə hökumətində hesab edirlər ki, "Türk axını" razılaşmasını artıq yeni hökumətin öhdəsinə buraxmaq lazımdır. Çünki indiki müvəqqəti hökumət birlə razılaşma imzalasa, gələcəkdə onun şübhə altına alınması baş verə bilər.

Digər tərəfdən, mənbələr Azərbaycanın da "Türk axını" layihəsindən narahat olduğunu və bu narahatlığın Türkiyə tərəfinə çatdırıldığını deyirlər. Üstəlik, ABŞ və Avropa Birliyi "Türk axını" layihəsinə qarşıdır. Vaşinqton və Brüssel Yunanıstan və Balkan ölkələrini Cənub Qaz Dəhlizinin bir hissəsi olan TAP-a dəstək verməyə çağırır.

Türkiyənin tərəddüdlərinə səbəb olan növbəti amil isə Rusiyanın bu ölkəyə satdığı qazın qiymətində gözlənilən səviyyədə endirməyə getməməsi hesab olunur...

***

Yaranmış mürəkkəb durumda Rusiya tərəfinin "Türk axını"nda israrı, rəsmi Ankara ilə yazılı anlaşma olmadan kəmərin dəniz hissəsinin inşasına başlamaq əzmi əlbəttə ki, diqqət çəkir. Şübhə yox ki, tələsən "Qazprom" yox, elə rəsmi Moskvanın özüdür. Avropanın qaz təchizatında Rusiyanın əhəmiyyətli payını saxlamasını təmin edəcək, üstəlik, münaqişədə olduğu Ukraynadan yan keçəcək bu kəmər Kreml üçün, Putinin sonrakı geosiyasi planları, hətta taleyi üçün olduqca mühüm önəm daşıyır, siyasi özünütəsdiq anlamı kəsb edir.

"Türk axını"nın uğurla reallaşması o sırada iqtisadi sanksiyalara rəğmən, Moskvanın Qərbə, postsovet məkanına təsir gücünün, Qərblə rəqabət qabiliyyətinin qaldığının nümayişinə hesablanmış bir projedir. Rusiya həm də ona görə tələsir ki, "Türk axını" ona faktiki rəqib olan və Avropanın Rusiyadan qaz asılılığını azaldacaq TAP-la mübarizədə daha əlverişsiz duruma düşməsin. Belə bir təhlükə isə qalır. Çünki Qərb, ABŞ həmin layihəyə qarşıdır və tranzit ölkələrə təzyiqləri davam etdirir. Layihənin yubanması Yunanıstan, Makedoniya kimi tranzit ölkələrin tərəddüdünü artıra bilər.

Kəsəsi, "Türk axını" Kreml üçün prinsipial, bəlkə də həyati bir məsələ kimi görünür. Təsadüfi deyil ki, prezident Putinin son Bakı səfəri ərəfəsində bu layihəni rəqabətə davamlı eləmək üçün Rusiya Xarici İşlər Nazirliyi (XİN) "Transxəzər" qaz kəməri layihəsini (TANAP, TAP) və donor-tranzit ölkələri *(Türkmənistan, Azərbaycan)* hədəf alan hədələyici bəyanat yaymışdı: XİN-in yüksək çinli rəsmisi Aleksandr Lukaşeviç bildirmişdi ki, 5 Xəzəryanı dövlətin razılığı olmadan qaz kəmərinin çəkilməsi reallaşa bilməz.

***

Söz yox ki, bu mesajı Bakı artıq alıb. Ona cavabı isə az öncə prezident İlham Əliyev belə vermişdi ki, TAP-a, TANAP-a manеə yaratdıqca, Azərbaycan Türkiyəyə daha çox qaz idxal edəcək. Yəni bu da Moskvaya bir kontur-mesajdır ki, Rusiya bütün hallarda yaradacağı əngəllərdən siyasi-iqtisadi qazanc götürə bilməyəcək. Rusiya isə hədə-şantaj yolu ilə türkmən qazının da Rusiya ərazisi ilə Avropaya daşınmasına səy edir.



Bu mənada Türkiyədəki hökumət böhranı, daha doğrusu, daimi deyil, müvəqqəti hökumətin qurulması əslində Azərbaycanın cari energetik maraqlarına uyğundur. Sonrası necə olacaq, bunu zaman, lap dəqiqi, Kremlin Bakıya qaz şantajının ikinci hissəsi praktikaya yönəlib.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015

**Hər şey yenidən təkrarlanır. Bu, çox pisdir! Bir siyasi kəsim illərdir ki, hər hansı bəhanə ilə bir media qrupunu hədəfə alıb. Bir siyasət mövsümündə iki-üç dəfə hücuma keçir, illərdir ki, eyni ittiham və iddiaları təkrarlayır. Bu savaşın sürəsi vahimdir! 1994-2015! İyirmi bir il! Arada kiçik fasilələr olub, barışıb, daha şiddətlə dalaşmışıq. Arada bölə bilməyəcəyimiz bir şey yoxdur, bizim baxışımıza görə. Onların baxışı budur ki, ya tabe olmalıyam, ya yox olmalı...**



**Rauf ARİFOĞLU**

# İbrahimbəyov getdi, Cəmil də gedəcək - Kərimli bəlası isə əbədidir...

Ən son bunlar məni Rüstəm İbrahimbəyova görə xain elan elədilər, xatırlayırsınızmı? İlk gündən siyasi fəhmim və məlumatlar əsasında yazdım ki, bu layihə avantüradır, boş şeydir; bu adam gəlib başlatdığı sürəcin önündə durmayacaq. Mən hər "...gəlməyəcək, Rusiya projesidir, sizi oynadırlar, kuklaya çeviriblər" yazdıqca, Kərimli dəstəsi "hurrey" deyə, üzərimə hücuma keçdi. İndiki kampaniya nədir ki! O zaman basqı, şantaj, təhqir, söyüş, iddia, qınaq və s. daha ciddi, daha kəskin idi.

İndi heç o yazığı yada salan da yoxdur... Hanı İbrahimbəyov, Əli Kərimli? Gəldimi? Sizi başına yığıb, rejimin üstünə apardımı?

**Bir nəfər belə sonradan məndən üzür istəmədi - ilk gündən dediyim düz çıxmışdı, İbrahimbəyov Milli Şuranı, Milli Şura da müxalifətə ümidlənən hər kəsi aldatmışdı.**

Bir nəfər belə sonradan məndən üzür istəmədi - ilk gündən dediyim düz çıxmışdı, İbrahimbəyov Milli Şuranı, Milli Şura da müxalifətə ümidlənən hər kəsi aldatmışdı. Xalqdan və gerçəyi yazan "Yeni Müsavat"dan üzr istəmək əvəzinə yalanı da, bizə hücumu da daha da artırdılar. Bunlar belədirlər, islah yoxdur talelərində...

Bundan lap öncə nə vardı? Elçibəyi ondan müdafiə etdiyimiz, xəyanətini deşifrə etdiyimizə görə Əli Kərimov bizi Bakı Şəhər Prokurorluğuna vermişdi. Deputat idi, iqtidarla anlaşmışdı. Gücü çatdı, biz iki qardaşı - Azər Ayxanı və məni polis gücünə, küçədə həbs etdirərək Tahir Ləlekişi oğlu Kazımovun - o zaman Səbayelin prokuroru idi - hüzuruna apartdırdı. Aylarla getdik-gəldik, saatlarla ifadə verdik...

Ondan sonra bunlar Etibar Məmmədovla müttəfiq oldular. Kərimovçu media bu ittifaqı pislədiyimizə görə bizi vətən xaini elan etdi, müxalifətin şansını və birliyini pozan qüvvə bəlirlədi.

Hə, arada bir koloritli siyasətçini də unutduq. Arxivlərə baxıram, indi xatırlayıram ki, kərimovçular *(Soyadı o zamana görə yazıram, müasir dövr üçün dəyişdirəcəm - R.A.)* bizi hətta akademik Nizami Süleymanova görə ittiham ediblərmiş! Təsəvvür edirsiniz! Bir araşdırın, eyni ittihamları 1998-ci ilin sonları, 1999-cu il boyunca dərc olunan kərimovçu mətbuatdan bulacaqsınız. O zaman bunlar Nizami Süleymanovla müqavilə imzalayırdılar... Və həm qəzetimizi, həm də Müsavat Partiyasını müxalifətin birliyini pozmaqda suçlayırdılar...

Bu gün başqa bir ağsaqqalın - hörmətli və kristal kimi tərtəmiz professor Cəmil müəllimin davasını bəhanə ediblər... İndi mövsümlərdən Cəmil, yəni.



Bir az sonra yəqin hörmətli və cəsur səfirimiz Arif Məmmədova görə vətən xaini və iqtidar nökəri elan olunacağıq, söyüləcəyik... Yəni bu Kərimli çetesi mövsümi olaraq, kimlərisə "PİRİM, Şeyxim" deyə qucaqlayacaq, biz də gördüyümüzü və bildiyimizi yazacağıq; növbəti boşuna layihə olduğunu xalqa bəyan edəcəyik, bunlar da "vaveyla" deyib, itli-pişikli üstümüzə hücum çəkəcəklər? Yetmədimi? Bezmədinizmi? Hər yeni gələn PİRƏ-ŞEYXƏ də dedizdirirlər: "Rejim son günlərini yaşayır, belə bir anda "Yeni Müsavat" qəzeti və Rauf Arifoğlu xalqa xəyanət edərək...."

Əsil xain o kəsdir ki, 22 ildir çevrəsini və xalqı aldadır. Bu kəsimin iqtidar olma şansı yoxdur, heç zaman da olmayacaq. Bu kəsim indiki rejimin güclənməsi və gerçək xalq hərəkatının, gerçək müxalifətin ortaya çıxmaması üçün qullanılan çoxdəfəlik vasitədir! Bu kəsim siyasətin qarayarası, tualetidir - yaxınlaşdıqca üfunət iyindən, pislikdən başın çatlayır. Fəqət, özləri bu iyə öyrəncəli olublar. Başqa qoxuları da sevmirlər.

**Əsil xain o kəsdir ki, 22 ildir çevrəsini və xalqı aldadır. Bu kəsimin iqtidar olma şansı yoxdur, heç zaman da olmayacaq. Bu kəsim indiki rejimin güclənməsi və gerçək xalq hərəkatının, gerçək müxalifətin ortaya çıxmaması üçün qullanılan çoxdəfəlik vasitədir! Bu kəsim siyasətin qarayarası, tualetidir - yaxınlaşdıqca üfunət iyindən, pislikdən başın çatlayır. Fəqət, özləri bu iyə öyrəncəli olublar. Başqa qoxuları da sevmirlər.**

**Bunlardan uzaq durmaq lazımdır, vətəndaşlar! Bunların heç gələcəyi-görəcəyi yoxdur! Bunu mən yazıram! 27 ilini siyasətə vermiş, bu məkanda hər kəsi tanıyan, milli azadlıq hərəkatının ən uğurlu layihəsinin başında duran, Azərbaycanın yeni tarix mediasını və söz azadlığını təmsil edən, yaradan və qoruyanlardan biri olaraq! AXC-nin iqtidar olacağını, Mütəllibovun nə zaman çökəcəyini aylar öncədən yazısında proqnoz edən; AXC iqtidarının devrilmə ehtimalı və ssenarisini, Heydər Əliyevin hakimiyyətə gələcəyini 1992-ci ilin oktyabr-noyabr aylarından proqnoz edib yazan; 2003-cü ildə iqtidarolma şansımızı yüksək bilib, onun uğrunda ölümünə çalışan; 2005-ci ilin 26 noyabrından isə bu düşərgənin şansının bitdiyini dəqiq hesablayıb, məsuliyyətində olan layihəni - qəzet və saytları iflasdan, qapanmaqdan qorumaq üçün yeni siyasi kurs hazırlayan, bunu uğurla həyata keçirən; bu cür proqnoz və fəhmləri çox zaman (əslində hər zaman) doğrulan birisi olaraq yazıram! Tarix və vətəndaşlar qarşısında bütün məsuliyyətimlə ifadə edirəm, bunları! Əli Kərimli heç zaman iqtidarda olmayacaq! Cəmil Həsənli gələn il bu zamanlar Rüstəm İbrahimbəyovdan da betər siyasi tale yaşayacaq. Arif Məmmədov yeni birisi əvəzləyəcək, ona da PİRİM deyib, sarılacaqlar... Bunları görmək o qədər bəsit ki!**

Bu dəstə gerçək müxalifətə, peşəkar siyasətçilərə və lazım olan siyasi manevrlərə imkan vermir! Hər kəsi şantaj və təhdid altında saxlayır. Axı siyasətçinin işi kritik anlarda manevr etməkdir, güclü olduğu situasiyalarda rəqibin üstünə daha bərk getmək; zəif olduqda, gücünü və çevrəsini, gələcək şansları qorumaq naminə yavaşımaq, çevik siyasi qərarlar vermək, əqdlər bağlamaq, yeri gələndə uğurla bazarlaşmaq, məğlubiyyətin özündən bircə parça qopardıb, onu kiçik qələbəyə çevirmək; nifrət edən, aqressivlik göstərən siyasi rəqibi neytrallaşdırmaq, mümkün olsa, onu simpatiya bəsləyən tərəfdaşa çevirmək, mümkün olmasa, onu özünə dözə biləcək həddə saxlamaq...

Qoyurlarmı? Dərhal yarlığı yapışdırırlar. Kərimlinin düşərgəsinin şantajı ucbatından Azərbaycan siyasi məkanında kimsə siyasət yapa bilmir, manevr cəhdləri yoxdur; hər kəs qarşı-qarşıyadır. İndi "Azadlıq - 2015" seçki bloku siyasi qüvvə olaraq, kövrək və çəkingən addımlarla bu manevrlərə təşəbbüs göstərir; bir şeylər də alınır; lakin bir baxın. Siyasətçiləri siyasət yapdıqlarına görə nə kökə qoyurlar! Necə təhqir edirlər!

Və bununla da normal siyasəti məhv edib, iqtidarın əlinə işləyirlər. Çünki onların təklif etdiyi müstəvidə bu iqtidar güclüdür; Qərbin qüdrətli paytaxtları ilə qafa-qafaya gəlməkdən çəkinməyən bir iqtidarla qafa döyüşdürmək qədər bihudə bir təşəbbüs olarmı.

**Qışqır-bağırla, heç bir gücün olmadığı halda, rəqibdən daha aqressiv davranmaqla, şantaj və nifrinlə siyasətmi olar?**

**Olmaz, olmayacaq. Bu üzdən də deyirəm ki, vətəndaşlar o üfunətdən, siyasətin tualetindən ayrılıb, normal təşkilatlara üz tutmalıdırlar.**

**Alternativlər varmı? Təbii ki, var. Həm də çoxdur.**

**Hansılardır, nə etmək olar?**

**Bu barədə də ayrıca yazacağıq.**

# Səs-səsə verənlərin damğası - "Səs"ə dönüblər!



**Xalid KAZIMLI**

**Tam səmimi deyirəm, son aylarda (hətta son iki ildə) oxuduğunuz bu qəzeti iqtidaryönlü "Səs" qəzeti ilə o qədər müqayisə etdilər ki, axırda özüm də quşqulandım: bəlkə gerçəkdən də artıq "Səs" qəzeti kimi olmuşuq, ya da əksinə, "Səs" qəzeti artıq bizim kimi çıxmağa başlayıb?**

Ünvanımıza bu cür ittiham səsləndirənlərin eyni sektanın, eyni fan-klubun üzvləri və təəssübkeşləri olmasına etina etmədən məsələyə təftişçi gözlə baxmaq gərəkdir.

Bundan ötrü uzaqlara getməyə lüzum yoxdur, "Səs" qəzeti Pekində çıxan "Jenmin jibao" deyil, əlimiz çatmaya, Yerevanda çıxan "Aykakan jamanax" deyil, dilini bilməyək, budur, buradadır, veb-saytları da var, 5-10 dəqiqədən bir yeniləyirlər, istəyən baxa, müqayisə edə bilər.

Əslində bu ölkədə fəaliyyət göstərən sayt və qəzetlərdə işıq üzü görən materialların 70-75 faizi gerçəkdən də eynidir. Aydın məsələdir, hamı APA, "Turan", "Trend" kimi informasiya agentliklərinin, yaxud da Türkiyədə fəaliyyət göstərən "Anadolu" və "Cihan" agentliklərinin, "Hürriyet", "Milliyet", "Habertürk" qəzetlərinin, eləcə də Rusiyada işləyən "İnterfaks" agentliyinin, "Lenta.ru", "Gazeta.ru" və sair saytların materiallarından istifadə edir. Eyni məsələ Ukrayna, Gürcüstan və Ermənistan mətbuatından iqtibaslara da aiddir - hamının istinad etdiyi mənbə təxminən eynidir.

Ancaq hər qəzetin, saytın özünün, dəbdə olan ifadəylə desək, eksklüziv yazıları olur. Bax, "Səs"lə "Yeni Müsavat"ın identikliyini (əgər varsa) burada axtarmaq lazımdır.

Baxaq. Necə deyərlər, İsfahan burda deyilsə də, "yüz iynə boyu" məsafə burdadır.

Bu gün "Yeni Müsavat" qəzetinin manşet xəbəri belədir: "Dəhşətli yanğının bir ayı: yeni sensasion məlumatlar".

Söhbətin nədən getdiyi aydındır. Yazıda hakimiyyəti, yüksək çinli məmurları qınayan, tənqid edən qeydlər var.

Bəs "Səs" qəzeti bu barədə yazırmı? Xeyr, kəlmə də yazmır. Elə bil, ötən ayın 19-da ölkədə elə bir hadisə olmayıb. Nə yazır bəs? Yazır ki, "Azərbaycan Avropa və Asiya arasında təbii körpü rolunu oynayır". Olsun.

Daha sonra, "Yeni Müsavat"ın ikinci önəm verdiyi mövzu başqa bir qalmaqala dairdir: "Oliqarxgeyt" işi - Avropa Oyunlarından sonra yeni həbslər olacaq".

Nəinki "Səs" qəzeti, istənilən hakimiyyəti saytı bu mövzuda yazı veribmi? Heç biri verməyib. Hər hansı biri verə bilərmi? Heç biri verə bilməz. Verə bilərlərsə, buyursunlar. İsfahan məsələsiE

Bəlkə "Səs" qəzeti Müsavat başqanı Arif Hacılının Avropa İttifaqının tədbirində iştirakı və çıxışı barədə informasiya verib? Xeyr. Bu qəzet bu mövzuda o vaxt yazar ki, A.Hacılını "erməni dəyirmanına su tökməkdə" ittiham eləsin, pisləsin.

Baxıram, "Səs" qəzeti "İsveçrə bankları şübhəli hesabları açıqlayır" başlıqlı informasiyanı da verməyib. Verə bilərmi? Bəlkə də verə bilər - başqa, uzaq ölkələrə aid olsa.

Budur, Musavat.com saytında İngiltərənin ölkəmizdəki səfiri İrfan Siddiqin açıqlaması dərc olunub, başlığı da bu cürdür: "Jurnalistlərin oyunları işıqlandırmaq imkanından məhrum edilməsi biabırçılıqdır".

İndi "Səs"i, o biri iqtidaryönlü saytları ələk-vələk edin, görək, belə bir xəbərə rast gələcəksinizmi?

Bir bunlar deyil, gün ərzində saytımızda yer alan 200-dən artıq xəbərin azı 100-ü "Səs"də gedə bilməz. Bizim üçün o qədər də fərqi yoxdur, YAP-çı deputatların müsahibələrini, açıqlama və şərhlərini, hətta köşə yazılarını verə bilirik, amma "Səs" və digərləri müxalifət liderlərinin bir sətrini də verə bilməzlər. Bir istisna var: müxalifət liderləri hakimiyyəti yox, bir-birlərini pisləsələr, "Səs" onların səsinə səs verər.

Ancaq sona qədər obyektiv olmaq lazımdır. Elə mövzular var ki, məhz burada "Səs" qəzeti ilə bizim yazdıqlarımız istər-istəməz səsləşir. Bu da ona görədir ki, bizimlə düşmənçilik edən sekta, fan-klub eyni zamanda "Səs"in işlədiyi komandayla da düşmənçilik edəndə, onlar ordan, biz burdan nəsə yazanda bir sıra tezislər, mülahizələr eyni olur.

Ona qalsa, illərdir "Səs" qəzeti də Müsavatı, İsa Qəmbəri pisləyir, gözdən salmağa çalışır, "Azadlıq" qəzeti də. Hətta "Azadlıq"dakı qərəzin zaman-zaman "Səs"i üstələdiyi də olur, amma bu iki qəzet arasında bərabərlik işarəsi qoyan yoxdur. Çünki ədalətsizlik olar.

Bizim məsələ də o cürdür. Hər kəs öz davasını aparır. "Səs"in davası başqadır, "Yeni Müsavat"ınkı başqa.

Ona görə də ittiham səsləndirərkən, damğa vurmaq istəyərkən yaraşan bir şey tapsınlar. Yoxsa "Səs" elə gəldi, "Səs" belə getdi.

***P.S.*** *"Səs" qəzetində çalışan həmkarlarımız üzürlü saysınlar, bu yazının məqsədi o qəzeti yamanlamaq deyil, sadəcə, nə dərəcədə fərqli olduğumuzu göstərməkdir.*

***P.P.S.*** *Daha bir detal. Özü "Azərbaycanda siyasi dustaq yoxdur" məzmunlu bəyanata imza atan 77 QHT, qəzet və saytın birində işləyən bir həmkarımız da tez-tez bizi "Səs" qəzetinə dönməkdə suçlayır. Həmin siyahıda isə bizim yox, onun işlədiyi qəzetin imzası var.*





# "Azərbaycanla ABŞ arasında ciddi problem yoxdur"

## Arzu Nağıyev: "Bu məsələlərdə Rusiya və Türkiyə faktoru da mühüm rol oynayır"

**Rəsmi Bakı ilə Qərb dövlətləri arasında gərginlik davam edir. Ötən gün Milli Məclisin orqanı olan "Azərbaycan" qəzeti "Nulandın dirijor çubuğu ilə idarə olunan Avropa" adlı məqalə dərc edib. Məqalə ABŞ Dövlət Departamenti və dövlət katibinin müavini Viktoriya Nuland və onun şəxsində ABŞ-ın xarici siyasətini tənqid üzərində qurulub.**

Yazıda iddia olunur ki, ABŞ Ukrayna ilə eyni zamanda Azərbaycanda da hakimiyyət dəyişikliyi planı hazırlayıb, bu planın aparıcı ismi isə Nuland olub. Sitat: "Xatırlatmaq yerinə düşər ki, həm Ukraynada, həm də Azərbaycanda çevriliş planının həyata keçirilməsinə eyni vaxtda başlanılmışdı. İcra olunan proqram, prosesləri idarə edən mərkəz və ona rəhbərlik edən şəxs də eyni idi - ABŞ Dövlət Departamenti və dövlət katibinin müavini Viktoriya Nuland".

**Yazıda Ukraynada yaşananlar ABŞ-la əlaqələndirilir, eyni zamanda Azərbaycanda analoji vəziyyəti yaratmaq cəhdinin iflas olduğu qeyd edilir:** "Amma problemin bənzərliyi baxımından Ukrayna ilə paralellik aparılsa da, nəticələr baxımından Azərbaycanda situasiya tamamilə fərqli oldu. Eyni proseslərin Azərbaycanda icrası üçün vaxtilə "Böyük xalq günü", "Xalq üsyanları" adlı kampaniyaların icrasına başlanılmışdı. 2012-ci ilin mart ayında Qubada, 2013-cü ilin yanvarında İsmayıllıda təşkil olunan hadisələrin alovlanaraq bütün ölkəni əhatə etməsi, hakimiyyət çevrilişi ilə nəticələnməsi istiqamətində ciddi planların reallaşdırılmasına cəhd edilmişdi. 2013-cü ilin yanvar ayında isə "Əsgər ölümlərinə son" kampaniyası başladı. Bu ssenari üzərində daha ciddi işləndiyini təsdiq edən fakt odur ki, ABŞ-ın Milli Demokratiya İnstitutunun (MDİ) Bakı ofisinin rəhbəri Aleks Qriqorevs öz səxavət kisəsindən layihəyə 2 milyon dollar pul ayırmışdı. Azərbaycan dövlətinin çevik tədbirləri bu şəxslərin əməllərinin və əsl niyyətlərinin tez bir zamanda ifşa edilməsinə, Viktoriya Nulandın koordinatoru olduğu layihənin iflasa uğramasına gətirib çıxardı. Bu, əslində Azərbaycanın Avropada hakim kəsilən "ABŞ-ın qarşısında müti davranış" stereotipinin dağıdılması demək idi".



Arzu Nağıyev

**Daha sonra məqalədə ABŞ-ın AB üzərində təsiri haqqında bəhs olunur və dolayısı ilə Azərbaycanın Avropa ilə münasibətlərdəki problemin əsas səbəbinin Vaşinqton olduğuna işarə edilir. Sitat:** "Böyük əminliklə demək olar ki, Oyunlardan əvvəl Nulandın "qvardiyası" azadlığa çıxsaydı, ABŞ Dövlət Departamenti Azərbaycanı təqdir edən bəyanat versəydi və Avropa liderlərinə göz ağartmasaydı, onlar ard-arda Bakı Olimpiya Stadionunun ən rahat kürsülərində bu mühüm Ümumavropa bayramının açılış mərasimini izləyəcəkdilər. Ancaq onların heç birində İlham Əliyev qədər cəsarət və prinsipiallıq yoxdur! Onların heç biri öz xalqlarının gələcəyi naminə Vaşinqtona, Nulandlara dirəniş göstərmək iqtidarında deyil! Avropa zahirən azad görünsə də, dərin köləliyin məngənəsindədir!"

Qeyd edək ki, bu yazı son aylarda ardıcıl aparılan anti-Qərb kampaniyasının növbəti səhifəsi hesab oluna bilər. Rəsmi dövlət qəzeti artıq neçənci dəfədir ki, məhz ABŞ hakimiyyətini hədəfə alır, onu Azərbaycanda dövlət çevrilişi, hakimiyyəti dəyişməyə çalışmaqda ittiham edir. Doğrudanmı, Azərbaycan hakimiyyəti Qərblə, o cümlədən ABŞ-la münasibətləri bitirir? Bakı Qərbi özünün əsas düşməni elan etməklə nəyə nail olmaq istəyir?

**Mövzunu, ümumilikdə son aylarda Bakı ilə Qərb paytaxtları arasında davam edən gərginliyi "Yeni Müsavat"a şərh edən "Trend" agentliyinin direktor müavini, siyasi şərhçi Arzu Nağıyev münasibətlərin qopma həddində olduğunu düşünmür. Azərbaycan hakimiyyətinin əvvəlki kimi Qərblə strateji əməkdaşlıq, enerji və təhlükəsizlik sahəsində əlaqələrinin davam etdiyini deyən ekspertin fikrincə, son illərdə əsasən insan haqları, QHT fəaliyyətləri mövzusunda Bakı ilə Qərb təşkilatları arasında anlaşılmazlıq var:** "Düşünürəm ki, hər bir dövlətin bir-biri ilə üst-üstə düşməyən mövqeləri ola bilər. Bu, elə AB-nin öz tərkibində olan dövlətlərə də aiddir. Bilirsiniz ki, Böyük Britaniya AB-dən çıxmaq istəyir, Yunanıstanın öz mövqeyi var, fransalılar miqrantlara qarşı müxtəlif qeyri-sivil tədbirlər həyata keçirirlər və s. Konkret faktlara gələndə isə Azərbaycanla ABŞ-ın münasibətlərində ciddi problem yoxdur. Bir çox sahələrdə strateji tərəfdaş olan iki dövlətdir. AB ilə bildiyiniz kimi, bir sıra məsələlərdə, daha doğrusu, QHT-lər və onların rəhbərləri ilə bağlı fikir ayrılığı mövcuddur. Yəni bu siyasətdir, daimi dostluq olmur. Əsas maraqlardır və hər bir tərəf də öz maraqlarından çıxış edir. Düşünürəm ki, bu məsələlərdə Rusiya, eyni zamanda Türkiyə faktoru da mühüm rol oynayır - daha doğrusu, Türkiyədəki qeyri-müəyyənlik, Rusiyanın da geosiyasi baxışları. Baxmayaraq ki, belə tənqidlər var, Rusiya ilə də ikitərəfli əlaqələr əlbəttə ki, mövcuddur. Lakin bu o demək deyil ki, biz öz müstəqil siyasətimizi həyata keçirmirik. Hansı siyasi kursdan söhbət gedə bilər ki, biz MDB-yə üzvlükdən başqa hər hansı ciddi bir blokda və ya qurumda təmsil olunmuruq. Zənnimcə, Azərbaycan hökumətinin siyasi kursu nə Qərbin, nə də Rusiyanın yanında dayanmaqdır. Bu, müstəqil bir kursdur".

❑ KƏNAN

# Qaraçuxur məscidini yandıranların mühakiməsi başladı

## Təqsirləndirilən Elnur Ələkbərov elan olunmuş ittihamlarla özünü təqsirli bilmədiyini deyib




**İyunun 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində Qaraçuxur qəsəbəsindəki məscidə partlayıcı vasitə atmaqda təqsirləndirilən Namiq Nəsibov və Elnur Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Virtualaz.org-un xəbərinə görə, prosesə hakim Rauf Əliyev sədrlik edib. Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib.

Təqsirləndirilən şəxs qismində dindirilən Namiq Nəsibov özünü qismən təqsirli bilib. Təqsirləndirilən Elnur Ələkbərov isə ona elan olunmuş ittihamlarla özünü təqsirli bilmədiyini deyib. Məhkəmə prosesi iyulun 2-dək təxirə salınıb.

Qeyd edək ki, ötən il noyabrın 26-da Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində yerləşən "Cümə" məscidinə yandırıcı maye ilə doldurulmuş şüşə butulkalar atılaraq yanğın törədilib.

Milli Təhlükəsizlik Nazirliyi tərəfindən keçirilmiş anti-terror tədbirləri nəticəsində yanğını törətməkdə şübhəli bilinən Azərbaycan vətəndaşları - Nəsibov Namiq Kamil oğlu və Ələkbərov Elnur Tahir oğlu saxlanılıblar. Onlar barəsində Cinayət Məcəlləsinin 214.2.1 (terrorçuluq) və 228.2.1-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb.

Müəyyən edilib ki, Namiq Nəsibov 2014-cü ilin avqust-sentyabr aylarında Suriyanın PKK terror təşkilatının nəzarətində olan ərazilərinə gedərək oradakı döyüşlərdə iştirak edib. Namiq Nəsibov Suriyanın Kobani şəhərindən qayıdandan sonra Elnur Ələkbərovla birgə PKK terror təşkilatının Azərbaycanda qanadı olaraq qeyri-rəsmi "Yekbun" təşkilatını yaradıb və ətraflarına tərəfdarlar toplamaq işinə başlayıblar. Namiq Nəsibov və Elnur Ələkbərov internetdə sosial şəbəkələr vasitəsilə yaratdıqları təşkilatın adından Bakı şəhərində aksiyaların keçirilməsi üçün çağırışlar da edib.

Bundan başqa, Namiq Nəsibov və Elnur Ələkbərov qabaqcadan əlbir olan bir qrup şəxs halında İslam dininin "Əhli-sünnə" təriqətinə mənsub və dini baxışlarına görə radikal saydıqları şəxslərə qarşı olan nifrətlərini nümayişkaranə şəkildə ifadə etmək, onların arasında qorxu və vahimə yaratmaq məqsədilə, bu cür qəbul etdikləri şəxslərin kütləvi toplaşdığı yerlərdə terror aksiyasının törədilməsini planlaşdırıblar.

# Uorlik Avropa Məhkəməsinin qərarından danışdı

**"Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı tərəflərin Qarabağ münaqişəsinin həll olunması üzərində işləməyə hazır olduğu gerçəyini dəyişmir".**



Ceyms Uorlik

ANS PRESS-in məlumatına görə, bunu ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik söyləyib.

O bildirib ki, həmsədrlərə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün tərəflərlə işləmək tapşırılıb: "Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nazama salınmasına hazırlıqla bağlı mövqeyi dəyişdirmir".

Qeyd edək ki, 16 iyun 2015-ci il tarixində Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatası "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarını elan edib. Sözügedən iş erməni təcavüzü dövründə Azərbaycanın Laçın rayonu ərazisindən qovulmuş altı Azərbaycan vətəndaşının Ermənistan Respublikasına qarşı 6 aprel 2005-ci il tarixli iddia müraciətinə əsaslanır.

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015

**Azərbaycan hakimiyyətinə qarşı tənqidi fikirlər səsləndirənlər sırasına daha bir ölkə qoşulub. Daha dəqiqi, Böyük Britaniyanın səfiri Azərbaycan hökumətinin ünvanına sərt sözlər deyib. "Turan" agentliyinin bir sıra Britaniya KİV nümayəndələrinin Azərbaycana səfərinin qadağan edilməsi ilə bağlı müraciətinə cavab olaraq səfir İrfan Siddiq Bakının Britaniya jurnalistlərinə qarşı qadağasını biabırçılıq adlandırıb.**


İrfan Siddiq


Novruz Məmmədov

# Britaniya ilə rəsmi Bakı arasında qalmaqal

## İngiltərə səfirinin açıqlaması sərt reaksiya doğurdu; **Novruz Məmmədov**: "O elə hesab edir ki, Azərbaycanla bağlı nə istəsə deyə və edə bilər"

**Sitat:** "Təəssüf ki, bəzi Britaniya jurnalistləri oyunları işıqlandırmaq üçün akkreditasiya olmayıblar. Bəzi jurnalistlərin bu hadisənin bir hissəsi olmaq imkanından məhrum edilməsi biabırçılıqdır. Bütün bunların Azərbaycan üçün təəssüf doğuran yekunu olub. Jurnalistlərin buraxılmasından imtinanın niyyəti mənfi qiymətləndirmələrdən qaçmaq cəhdi idisə, nəticə tam zidd olub və bir çox mənfi materialların ortaya çıxmasına səbəb olub. Müxtəlif nöqteyi-nəzərlərin qəbul olunması güclü demokratiyanın ən mühüm cəhətlərindən biridir".

**Gözənildiyi kimi, Britaniya səfirinin açıqlamasına yüksək səviyyədə cavab gecikməyib. Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov twitter hesabından səfirin əməllərini pisləyən açıqlama yazıb. Sitat:** "Dünən mətbuatda heç bir çərçivəyə sığmayan bir informasiyaya rast gəldim. Birləşmiş Krallığın Azərbaycandakı səfiri Britaniya jurnalistlərinin akkreditasiya olmamalarını biabırçılıq adlandırıb. Görünür, Birləşmiş Krallığın səfiri elə hesab edir ki, Azərbaycanla bağlı nə istəsə deyə və edə bilər, təəssüf".

Qeyd edək ki, Azərbaycan hakimiyyətinin Qərbi Avropada ən yaxın münasibətlərə malik olduğu ölkələrdən biri və ya birincisi Böyük Britaniya krallığıdır. Bakı ilə London arasında uzun illər isti münasibətlər mövcud olub. Britaniyadan şahzadə səviyyəsində yüksək titullu rəsmilər dəfələrlə Bakıda qonaq olublar. Bu mənada uzun müddət Qərbdə Bakıya qarşı tənqidi fikirlərə London qoşulmayıb. İndi isə vəziyyət dəyişib. Britaniya mətbuatı rəsmi Bakını sərt şəkildə tənqid edir. Buna cavab olaraq Azərbaycan hakimiyyəti ingilis qəzetlərinə məhdudiyyət tətbiq edib.

**Fransa Beynəlxalq Araşdırmalar Mərkəzi (CERI), Paris Siyasi Elmlər İnstitutunun eksperti Bayram Balçı deyir ki, Bakı ilə Qərb arasında bağlar tamamilə qopmaq həddinə yaxınlaşır. B.Balçının fikrincə, "Eurovision"dan sonra Avropa Oyunları Azərbaycanı yenidən diqqət mərkəzinə çıxarıb:** "Bu oyunlar Azərbaycana baş bəlası olacaq. Reklam, hörmət gətirmək əvəzinə başağrısı, tənqidlər gətirəcək. Çünki bu cür tədbirlər bir qayda olaraq ölkədəki insan haqları, demokratiyanın vəziyyətinin tanıdılmasına, yerli fəalların bu sahədə problemləri dünyaya çıxarmaları üçün unikal şans verir. Bu isə Azərbaycanın indiki vaxtında heç də müsbət imic yaratmayacaq".

**Ancaq o da var ki, rəsmi Bakı Qərbin qarşısında geri çəkilmir, əksinə, hücum mövqeyi nümayiş etdirir, Qərb hökumətlərini, beynəlxalq qurum və siyasətçiləri tənqid edir. Doğrudanmı, Bakının hansısa ciddi kartı var? Bayram Balçı deyir ki, Bakı öz durumunu bildiyi üçün belə rahatdır:** "Bakı bilir ki, nə qədər tənqid etsə də, fərqi yoxdur. Ən pis vəziyyətdə Bakı Moskva ilə yaxınlaşma kursu götürə bilər. Belə olarsa, Qərb daha çox itirəcək. Bunu Bakıda da bildikləri üçün sakit dayanmırlar. Bu mənada çox təəssüf ki, Azərbaycan demokratik fikirlər üçün çox ümidsiz bir durumdadır. Mən həmişə demişəm ki, Qərb vaxtında Rusiyanı durdura bilsəydi, o zaman indiki hadisələr baş verməzdi. Rusiya Ukrayna və digər ölkələrdə Qərbə qarşı bu şəkildə hücum edə bilməzdi. Qərbin indi Bakıya qarşı hansısa addımı atması mümkün deyil. Çünki ortada güclü Rusiya faktoru var. Moskvaya sığınarsa Bakı Qərbdən gələn təzyiqlərə qarşı dayanacaq. Yalnız BTC layihəsi davam edəcək. Çünki bu bir beynəlxalq layihədir və çox böyük miqdarda pul yatırılıb".

**B.Balçı deyir ki, Qərb Azərbaycana qarşı siyasi təzyiqləri artırsa da, embarqoya getməyəcək:** "Embarqoya inanmıram getsinlər. Amma siyasi təzyiqlər var, lakin onun da faydası yoxdur. Bundan daha sərt təzyiqlərin olmasını güman etmirəm".

❑ **KƏNAN**

# Müsavat başqanı Brüsseldə kimlərlə görüşüb?

## Arif Hacılının Avropa səfəri davam edir


Arif Hacılı

**Xəbər verdiyimiz kimi, Müsavat Partiyasının başqanı Arif Hacılı Avropa İttifaqının dəvəti ilə Brüsseldə səfərdədir. Müsavat Partiyasının yaydığı xəbərdə deyilir ki, A.Hacılı səfər çərçivəsində "Liberal demokratik perspektivdə Şərq Tərəfdaşlığının gələcəyi" mövzusunda keçirilən müzakirələrdə iştirak etməklə yanaşı, Avropa və postsovet məkanının dövlət xadimləri, siyasi partiya rəhbərləri ilə bir sıra görüşlər keçirib.**

Avropa Liberal Demokrat İttifaqının (ALDE) prezidenti Guy Verhofstadt, Avropa Parlamentinin xarici siyasət məsələləri üzrə koordinatoru Hans van Baalen, ALDE-nin vitse-prezidenti Pavel Telicka, Avropa Parlamenrtinin üzvü, ALDE-nin rəhbər şəxslərindən olan Petras Austrevicius, Çexiyadan olan Avropa Parlamenrtinin İnsan Haqları üzrə Komissarı Vera Jourova, Finlandiyanın sabiq baş naziri Anneli Yaatteenmyaki, Rusiya müxalifətinin liderləri - keçmiş baş nazir Mixail Kasyanov, "Yabloko" təşkilatının sədri Sergey Mitroxin, Ukrayna Radasının üzvü Mukola Katerinçuk, Gürcüstan müxalifətinin təmsilçilərindən keçmis xarici işlər naziri Maya Pankidze və digər siyasi xadimlər arasında keçirilən görüşlərdə Azərbaycanın Avrointeqrasiya istiqamətində inkişaf perspektivləri, Azərbaycanda siyasi islahatlar, siyasi məhbuslar, Qarabağ probleminin ədalətli həlli məsələləri müzakirə olunub.

Müzakirələr zamanı həmçinin Müsavat Partiyası ilə Avropa İttifaqı strukturlarının müvafiq siyasi və ictimai qurumlarla əməkdaşlıq perspektivləri, ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulmasına xüsusi diqqət verilib.

Görüşlərdə Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı da iştirak edib.

Xəbərdə deyilir ki, Arif Hacılının Avropa İttifaqının dəvəti ilə səfəri həftə sonunadək davam edəcək.

Xəbərdə Arif Hacılının Avropaya səfəri çərçivəsində müxtəlif ölkələrdə yaşayan müsavatçılarla görüşdüyü də bildirilir. Qeyd edilir ki, görüşdə çıxış edən A.Hacılı əvvəlcə Müsavat Partiyasının son qurultayı barədə məlumat verib. Eyni zamanda Avropa Parlamentində keçirilən görüşlə bağlı görüş iştirakçılarını məlumatlandırıb. A.Hacılı Müsavat Partiyasında seçkilərdə və daha sonrakı proseslərdə saxtakarlıq olmadığını vurğulayıb. Bundan sonra da Avropada dəstəyə ehtiyacı olan soydaşlarımıza kömək göstəriləcəyini bildirib. Görüşdə qərara alınıb ki, Avropada Müsavat Partiyasının Koordinasiya Mərkəzi yaradılsın. Mərkəzin yaradılması ilə bağlı təşkilati məsələlər Almaniyada yaşayan müsavatçı İlham Həsənə həvalə olunub.

Yeni yaradılacaq mərkəzin Müsavata yönəlik saxta sənəd ittihamlarının aradan qaldırılacağı istiqamətində rolu olacağı vurğulanıb.

Görüşdə Eldəniz Yusifov, İlham Həsən, Əhməd Cəlaloğlu, Çağlar Qasımov, Ləman Talıbova olmaqla ümumilikdə 30-a yaxın şəxsin iştirak etdiyi bildirilir.

❑ **E.SEYİDAĞA**


Aleksey Kudrin

# Keçmiş nazir prezidentə növbədənkənar seçki təklif etdi

**Rusiyanın keçmiş maliyyə naziri Aleksey Kudrin növbədənkənar prezident seçkilərinin keçirilməsini və yeni islahatlara başlamağı təklif edib.**

Onun sözlərinə görə, yeni dövlət başçısına islahatları keçirmək daha asan olar. Keçmiş nazir nümunə kimi Qazaxıstanı göstərib.

Kudrin qeyd edib ki, hökumətin antiböhran proqramları 2018-ci ilə hesablanıb. Lakin heç bir ciddi problemi 3 il müddətinə həll etmək mümkün deyil.

Qeyd edək ki, Kudrindən bir qədər əvvəl iqtisadçı Yevgeni Qontmaxer də Putinə növbədənkənar prezident seçkilərini keçirməyi təklif edib.

# Azərbaycan nümayəndə heyəti AŞ PA-nın yay sessiyasına gedir

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun başçılığı ilə parlament nümayəndə heyəti qurumun yay sessiyasında iştirak etmək üçün iyunun 21-də Fransanın Strasburq şəhərinə səfər edəcək.**

Parlamentdən APA-ya verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə deputatlardan Rafael Hüseynov, Sabir Hacıyev, Rövşən Rzayev, Aydın Abbasov, Sahibə Qafarova, Qənirə Paşayeva, Sevinc Fətəliyeva və Elxan Süleymanov daxildir.




Tədbirdə AŞ PA-nın Daimi Komitəsi və Büronun fəaliyyəti ilə bağlı hesabat dinləniləcək, Azərbaycanda demokratiya institutlarının fəaliyyəti, Türkiyədə son parlament seçkilərinin nəticələri, Macarıstandakı son durum, Mərakeş parlamenti ilə münasibətlər, Ukraynada münaqişə zamanı itkin düşmüş şəxslərin taleyi, media etikası və bu sahədə şəffaflığın artırılması, Rusiya Federasiyası nümayəndə heyətinin səlahiyyətləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparılacaq.

Sessiya çərçivəsində AŞ PA Bürosunun və qurumun Sosial məsələlər, səhiyyə və davamlı inkişaf, Qeyri-diskriminasiya və bərabərlik, Demokratiya və siyasi məsələlər, İnsan hüquqları və siyasi məsələlər komitələrinin iclasları keçiriləcək. Deputatlarımız sessiyada müzakirəyə çıxarılacaq məsələlər barədə öz fikirlərini açıqlayacaqlar.

Səfər zamanı nümayəndə heyətinin üzvü, millət vəkili Sevinc Fətəliyeva AŞ PA-nın Partiya Komitələrinin 12-ci iclasında və uşaqlara qarşı cinsi zorakılığın önlənməsi məsələsinə həsr olunmuş tədbirdə iştirak edəcək. Səfər iyunun 28-də başa çatacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakı-Moskva əməkdaşlığı İrəvanın yuxusunu qaçırıb

## Putinin Bakı səfərinin ardınca ordumuz düşmənə aman verməyəcək müasir sistemlər alıb; ekspert: "Azərbaycan regionda Rusiya ilə daha önəmli oyunçudur, nəinki Ermənistanla..."

**Rusiya Avrasiya Birliyinin üzvü olmasa da, fakt budur ki, iki ölkə arasında təkcə iqtisadi-ticari sahədə deyil (ötən illə müqayisədə qarşılıqlı mal dövriyyəsinin həcmi 12 % artıb), hərbi-texniki sferada da əməkdaşlıq inkişaf edir. Bunun ən bariz təzahürü tərəflər arasında silah ticarəti ilə bağlı çoxmilyardlıq anlaşma və bu anlaşmanın hər il uğurlu yerinə yetirilməsidir. Məsələn, dünən bəlli olub ki, Azərbaycanın Rusiyaya sifariş verdiyi 9K123 "Xrizantema-S" tank əleyhinə özüyeriyən raket kompleksinin ilk partiyası da artıq Bakıya təhvil verilib (anspress).**



Fikrət Sadıqov

Bu barədə "Armiya-2015" forumunda iştirak edən "Azeri-Defence"nin əməkdaşına Kolomen Maşınqayırma və Konstruktor Bürosundan bildirilib.

Hazırda tərəflər arasında sifarişin həcminin artırılması istiqamətində danışıqlar davam edir. Azərbaycan Ordusunun bu maşınları istifadə edəcək heyətinə istehsalçı müəssisə tərəfindən təlim və treninqlər də keçirilib.

Qeyd edək ki, "Xrizantema-S" döyüş komplektində lazer və radiosiqnala idarə olunan 4 fərqli raket tipi, habelə axtarış radarı və optik nişangah yer alır. BMP-3 döyüş maşınlarının şassisi üzərində yerləşməsi onun manevr imkanlarını daha da artırır.

****

Sözsüz ki, Azərbaycanın öz halal haqqı olaraq və təcavüzə məruz qalan tərəf kimi hərbi parkını geniş iqtisadi imkanları hesabına gücləndirmək üçün müasir döyüş maşınları əldə eləməsi işğalçı Ermənistanı ciddi narahat edir. Bu işin Rusiya hərbi texnikası hesabına aparılması isə düşməni ikiqat əndişələndirməkdədir.

Bu narahatlıq dünən təşkil edilmiş Moskva-Astana-İrəvan telekörpüsündə *(mətbuat konfransında)* bir daha özünü göstərib. Belə ki, erməni tərəfinin təmsilçilərindən biri bununla bağlı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sədri Nikolay Bordyujaya konkret sual ünvanlayıb, bu əməkdaşlığın İrəvan-Moskva müttəfiqliyi və dostluğuna xələl gətirdiyini qeyd edib.

**Bordyuja isə cavabında Rusiyanın Azərbaycana silah satışında paritet prinsipinə əməl etdiyini söyləsə də faktiki olaraq, erməni tərəfi pəjmürdə edən acı cavab verib. Sitat:** "Azərbaycana silah satışı Rusiya rəhbərliyinin qərarı əsasında və prioritet gözlənilməklə həyata keçirilir. Rusiya Azərbaycana silah satır, ancaq Ermənistana da satır. Azərbaycan müstəqil dövlətdir. Ona Rusiyanın silah satmasında qeyri-adi heç nə yoxdur".

Yəni rusiyalı general bununla erməni tərəfinə bir daha xatırladıb ki, o, Güney Qafqaza, Azərbaycana yönəlik siyasətində Ermənistanla müttəfiqliyi ciddiyə almaq niyyətində deyil və ən əvvəl öz maraqlarından çıxış edir.

Mətbuat konfransında Bardyuja ilə bağlı bu mövzudan dolayı qalmaqal da yaşanıb. Bildirilir ki, telekörpüdə erməni jurnalistin KTMT sədrinə sualı zalda gərginlik yaradıb. Belə ki, jurnalist ondan Azərbaycana bu quruma üzvlük üçün müraciət etməsinin izahatını tələb edib.

**Nikolay Bordyuja isə cavabında erməni jurnalistin özündən izahat tələb edib:** "Əslində mən sizdən izahat istəyirəm. Mən nə zaman üzvlüklə bağlı Azərbaycana müraciət etmişəm? Heç yadımda deyil. Ancaq etiraf etməliyəm ki, bu barədə Ermənistan mətbuatında çox xəbərlər oxumuşam. Sizin mətbuata qalsa, mən çox şey demişəm. Halbuki bunlardan özümün xəbərim yoxdur. Ancaq bununla belə, Azərbaycanın üzvlüyü ilə bağlı, hər halda, fikrimi bildirmək istərdim. KTMT bütün dövlətlərlə əməkdaşlığa hazırdır. Əgər Azərbaycan tərəfi bizə üzvlüklə bağlı müraciət etsə, bütün üzvlərimiz bunu dəyərləndirməyə hazırdır".

*****

Göründüyü kimi, Ermənistan əslində Rusiyanın boğazında ilişib qalan xırda sümüyə bənzəyir - Rusiya onu nə çıxarıb ata bilir, nə də uda. Ümumiyyətlə isə son vaxtlar Bakı ilə Moskva arasında ən yüksək səviyyədə siyasi təmasların artması,ələlxüsus da Rusiya prezidenti Putinin I Avropa Oyunlarının açılış mərasimi ilə bağlı Bakıya səfər edərək iki gün Azərbaycanda qalması, öz azərbaycanlı və türkiyəli həmkarları ilə geniş müzakirə aparması işğalçı tərəfin yuxusunu əməlli-başlı qaçırıb.

**"İki dövlət arasında tərəfdaşlıq əlaqələrinin dərinləşməsi faktı müşahidə olunur və bu fürsətdən istifadə etməmək mümkün deyil". Bu barədə politoloq Fikrət Sadıqov deyib (axar.az). O bildirib ki, Moskvanın son zamanlar Bakıya meylliliyi İrəvanı özündən çıxarır:** "Valdimir Putinin nümayəndələri də etiraf etdi ki, görüşlər Dağlıq Qarabağ məsələsinin müzakirəsi ilə nəticələnib. Yaxın zamanlarda hansısa radikal dəyişikliklər olmasa da, ortada çox önəmli faktlar var. Rusiya son zamanlar Azərbaycan yönlü addımlar atmaq fikrindədir və hətta Moskvanın bunu gizlətməməsi Ermənistanı qıcıqlandıran bir amilə çevrilib. Hiss olunur ki, İrəvan bundan çox narahatdır. Çünki regionda Azərbaycan Rusiya ilə daha önəmli oyunçudur, nəinki Ermənistanla. Yaranmış hazırkı geosiyasi qarşıdurma zəminində Azərbaycana bir meyllilik var. Düşünürəm ki, görüşlərdə Dağlıq Qarabağla bağlı ciddi müzakirələr olub. Zənnimcə, qarşıda bunun nəticələri aydın olacaq".

*****

Bir çox təhlilçilərə görə, Bakı-Moskva yaxınlaşması həm də Qarabağ zonasında yeni, daha dağıdıcı, nəticələri proqnoz edilməyən müharibə ehtimalını azaltmağa yönəlib. Başqa sözlə, Rusiya Azərbaycana müasir silahlar satsa da, müharibə də arzulamır, sadəcə, bununla eyni zamanda Ermənistanı xofda saxlayır, Azərbaycanı isə özündən silah asılılığına salır, maliyyə qazanır.

**"Qarabağ münaqişəsinin hərbi yolla həlli yolu yoxdur". Bunu da Nikolay Bardyuja həmin mətbuat konfransında deyib. Onun sözlərinə görə, rəhbərlik etdiyi təşkilat bu münaqişəyə müdaxilə etmək səlahiyyətində deyil:** "Ancaq bununla belə, hər gün cəbhə zonasındakı hadisələrdən xəbər tuturuq. Münaqişənin həlli üçün Minsk Qrupu yaradılıb. Onlar problemi yoluna qoymalıdırlar. Digər beynəlxalq təşkilatlar prosesə müdaxilə etməməlidirlər. KTMT olaraq biz onların fəaliyyətini dəstəkləyirik".

**O, əlavə edib ki, MDB məkanında mövcud olan münaqişələrdə müharibə başlasa, uzun müddət davam edəcək, çoxlu qan töküləcək:** "Bunu Rusiya yaxın qonşusu olan Ukraynanın simasında gördü..."



Nikolay Bordyuja

**Rusiyalı generaldan erməniyə acı cavab: "Azərbaycan müstəqil dövlətdir, ona Rusiyanın silah satmasında qeyri-adi heç nə yoxdur..."**

## Ermənistanda öldürülən rus hərbçinin işinə Rusiyada baxılacaq



**Ermənistanda qətlə yetirilən rusiyalı hərbçi İvan Novikovun işinə Rusiyada baxılacaq. Bu barədə "RİA Novosti"yə hüquq-mühafizə orqanlarındakı etibarlı mənbə məlumat verib (APA). Bildirilib ki, belə bir qərarın qəbul edilməsinin səbəbi qətlə yetirilən və cinayətdə şübhəli bilinən şəxslərin Rusiya hərbi qulluqçuları olmasıdır.**

Qeyd edək ki, bundan öncə rusiyalı hərbçinin qətlini Rusiya və Ermənistan müvafiq strukturlarının birgə araşdıracağı barədə məlumat yayılmışdı.

Xatırladaq ki, iyun ayının 15-də Ermənistanın Gümrü şəhərində 102 saylı Rusiya hərbi bazasının hərbi qulluqçusunun cəsədi tapılıb. Meyit "Ana Ermənistan" kompleksinin ərazisində aşkar edilib. Əsgərin bədənində bıçaq xəsarətləri aşkarlanıb. Qətli törətməkdə şübhəli bilinən Rusiya hərbi bazasının digər hərbi qulluqçusu saxlanılıb. Məlumata görə, saxlanılan şəxs cinayəti əsgər yoldaşı ilə məişət zəminində yaranan münaqişə zamanı törətdiyini etiraf edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 132 (6160) 19 iyun 2015

**Bakı 2015 birinci Avropa Oyunlarının bağlanış mərasiminin açılış mərasimindən də yüksək səviyyədə keçiriləcəyi bildirilir. Açılış mərasiminə dəvət edilən və iştirak edən müxalifət partiyalarının sədrlərinin bağlanış mərasiminə də qatılıb-qatılmayacağını araşdırdıq. KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, onların açılış mərasimində iştirakı xeyli müzakirələrə səbəb olub və haqlı suallar var.**



# Partiya sədrləri AYO-nun bağlanış mərasiminə qatılacaqlar?

## Dəvət gözləyənlər də var, "məsələyə müsbət cavab vermək çətin olacaq" deyən də

Bəzi sualların cavabı var, bəzi sualların isə cavabı yoxdur: "Bizim bilmədiyimiz məsələlər də var idi ki, açılışdan sonra bəlli oldu, bildik. Bağlanış mərasiminə dəvət olacaqsa, müzakirə olunacaq. Böyük ehtimalla bu məsələyə müsbət cavab vermək çətin olacaq".

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, hələ dəvət gəlməyib, dəvət olsa gedəcək:** "Dəvət olan yerə ar eləmə, dəvət olmayan yeri dar eləmə. Mənə də dəvət olsa təbii ki, iştirak edəcəyəm. Adətən bu cür tədbirlərin bağlanışı açılışından da təmtəraqlı olur. Yəqin Avropa Oyunlarının bağlanışı da yüksək səviyyədə olacaq. Dəvət eləməsələr isə televiziyadan izləyəcəyəm".

AMİP sədri Yusif Bağırzadə bildirdi ki, açılış mərasiminə bir neçə gün qalmış ona dəvət göndərilmişdi, yəqin bağlanış mərasiminə də bir-iki gün qalanda dəvət olacaq: "Dəvət oldu iştirak etdim, xoş təəssüratlarımız oldu. Bağlanış mərasiminə də dəvət edilsəm iştirak edəcəyəm".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev** dedi ki, dəvət alacaqsa, qatılacaq.

**Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirdi ki, dəvət olsa iştirak etməyi düşünür:** "Müxalifət dövlətin imicinə müsbət təsir edən tədbirlərdə iştirak etməli, dəstək verməlidir. Həmişə o fikirdə olmuşam ki, müxalifətin əsas missiyası hansısa digər dövlətin əlində mövcud hakimiyyətə "sən antidemokratiksən" deyə bilmək üçün təzyiq vasitəsinə çevrilmək deyil. İndi də mövqeyim ondan ibarətdir ki, hakimiyyətlə müxalifət arasında münasibətlər millətin rifah halını və dövlətin gücünü zəiflətməyə xidmət etməməlidir. Bax, bu aspektdən yanaşanda, hesab edirəm ki, Avropa Oyunlarının keçirilməsində təkcə iştirak etmək azdı, həm də indi yaranmış situasiyaya görə, bu prosesə dəstək olmaq daha məqbul variantdır. Fikir verin, hakimiyyət də uzun zaman bəyan edirdi ki, Azərbaycanda müxalifət yoxdur. Biz isə öz varlığımızı ortaya qoymaqla həmişə deyirdik ki, iqtidar-müxalifət dialoqu olmalıdır və ölkənin problemlərini, əks qütblər olaraq, bir masa arxasında əyləşərək müzakirələr aparmaqla həll etmək olar. İndi ya zəlzələdən, ya da vəlvələdən, bu, Avropa Oyunlarına görə də ola bilər, başqa səbəblərdən də, hakimiyyətdə olanlar da müxalifətin varlığını qəbul edərək, onunla dialoqa getməyi vacib hesab elədi. Gedən proseslər də onu göstərdi ki, həqiqətən də müəyyən məsələləri hakimiyyətlə müxalifət bir araya gələrək normal müzakirə edə bilərlər. Sonuncu görüşdə biz Azərbaycanda seçki islahatları ilə bağlı məsələni gündəliyə çıxarmaq istədik, amma qarşı tərəf isə bildirdi ki, indi Avropa Oyunları məsələsi daha aktualdı və onun müzakirə olunmasını istədi. Müzakirələr zamanı biz bu oyunların Azərbaycana nə qədər lazım olub-olmamasını, eləcə də bu məsələnin digər aspektlərinə dair öz mövqelərimizi bildirdik. Və həm də bu müzakirələrin nəticəsi kimi biz Azadlıq Partiyası olaraq indiki etapda hakimiyyəti dəstəkləmək qərarına gəldik".

❑ **Etibar SEYİDAĞA**

# Gürcüstana buraxılmayan azərbaycanlılar təbii fəlakətdən danışdılar

**İyunun 13-də Gürcüstanda güclü yağış nəticəsində baş verən daşqın hadisəsindən 6 gün ötür. Məlum hadisədə onlarla insan həyatını itirdi, ağır xəsarətlər aldı. Gürcü hökuməti faciə ilə bağlı üç günlük matəm elan etdi.**



**Natiq Cəfərli:** "Qadağa olmasaydı..."



**Zəlimxan Məmmədli:** "Hər şeyə rəğmən..."

Qonşu ölkədə baş verən hadisə Azərbaycanda da narahatlıqla qarşılandı. Hazırda Gürcüstanda 500 mindən çox soydaşımız yaşayır. Ölkəmizdə çoxlu sayda insanın orada qohumları, tanışları var. Əsas narahatçılıqlardan biri də bununla bağlı idi.

Əslən Gürcüstandan olan bəzi vətəndaşlarımızın kömək üçün qonşu ölkəyə getdikləri barədə xəbərlər alırıq. Amma elə şəxslər oldu ki, çox istəsələr də, gedə bilmədilər. Buna səbəb həmin şəxslərin ölkədən çıxışlarına qadağa qoyulması oldu.

**Belə şəxslərdən biri REAL İdarə Heyətinin üzvü, iqtisadçı ekspert Natiq Cəfərlidir. Bu barədə onun özü sosial şəbəkələrdə status paylaşıb:** "Gürcüstanda baş verən faciəyə görə üzüldüm, Allah ölənlərə rəhmət etsin, yaralı olanlara şəfa, gürcü xalqına səbr versin.

Mən əslən gürcüstanlıyam, amma 8 aydır ölkədən buraxmırlar, 8 aydır orada yaşayan qohumlarımın toyunda, yasında iştirak edə bilmirəm. Baş Prokurorluğa 3 dəfə rəsmən müraciət etsəm də, "ölkədən çıxmağıma niyə qadağa qoyulub" sualına cavab ala bilməmişəm. Ümid edirəm ki, bu absurd qadağa tezliklə götürüləcək. Qadağa olmasaydı indi Tiflisə gedər, onlara dəstək olardım, ən çox da zooparkın yenidən qurulmasında könüllü çalışardım..."

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədlinin də Gürcüstana girişi yasaqlanıb. Z.Məmmədli təbii fəlakət zamanı gördükləri işlərlə bağlı bunları dedi:** "Bir ilə yaxındır müavinim və mənim doğma yurdumuza girişimiz qadağan olunub. Burada hər hansı bir hüququ əsas yoxdur. Bu daha çox fəaliyyətimizlə bağlıdır. Həyata keçirdiyimiz tədbirlərlə insanların bir yerə toplaşması nı təşkil edirdik. Konkret olaraq, təşkil etdiyimiz "Elat" bayramı on minlərlə insanı bir yerə cəm edirdi. Bu isə Gürcüstanın indiki hakimiyyətinin xoşuna gəlməyən məsələ idi. Bizləri orada ictimai-siyasi proseslərdə iştirak etməyən toplum kimi görürlər. Hər iki xalqın dostluğunu daim təbliğ etmişik. Çox zaman "dostlarımız" tərəfindən qınanmışıq ki, liberal xətt yürüdürük. Hesab edirik ki, düzgün xəttdir. Göründüyü kimi, gürcü hökumətinin də bu xətt xoşuna gəlmir. Gürcüstanda bəzi dairələrə yaltaqlananlar var. Haqqımızda yalan şayiələr buraxırlar. Hətta haqqımızda donos verənlər belə var. Biz oraya buraxılmaya bilərik, amma adamlarımız var. Getdiyimiz yolu dəstəkləyən minlərlə insan var. Hər iki xalqın oxşar taleyi bizi bir olmağa vadar edir. Yolumuz davam edir. Daşqınla bağlı ilk olaraq, "Borçalı" Cəmiyyəti Gürcüstanın ölkəmizdəki səfirliyinə başsağlığı göndərdi. Mənəvi dəstəyimizi ifadə etdik. Orada olan dostlarımıza tapşırıqlarımız oldu. Onlar da yerinə yetirdilər. Daşqın ərazisində könüllülər qismində iştirak etmək, o cümlədən yaralılara, həyatını itirənlərin ailələrinə baş çəkmək kimi işlərimiz oldu. Təbii hadisədir. Bu hər zaman ola bilər. Allahın bildiyi şeylərdir. Biz heç nə edə bilmərik. Hər şeyə rəğmən, birlik nümayiş etdirə bildik".

❑ **Cavanşir ABBASLI**

# İdmançıların real qələbəsi və siyasilərin "yaxşı olacaq" vədi



**Azər RƏŞİDOĞLU**

**Ölkənin nəbzi idmanla vurur. İdman yarışları siyasəti arxa plana keçirib. Halbuki cəmi bir neçə aydan sonra ölkədə parlament seçkiləri keçiriləcək və yeni qanunverici orqan son on ilin siyasətçilərindən çoxunu bitirəcək. Bu baxımdan, parlament seçkilərinə münasibət fərqli situasiya yaratmalı idi. Lakin insanların çoxu üçün idmançılarımızın qələbələri daha cəlbedicidir. Real qələbə sevinci "yaxşı olacaq" təlqinindən daha şirindir.**

İdman həvəskarı kimi fəal olan xalq siyasətdən o qədər bezib ki, onu çətin ki, siyasi şüarlarla küçə və meydanlara toplamaq mümkün olsun. Xalq bizlərdən biri olan idmançılarımızın qələbəsinə sevinir, onları alqışlayır və bu zaman siyasət barədə düşünmür. Millətin adına qələbə olan yerdə başqa heç kəs yada düşmür. Xalqın dəstəyini qazanmaq üçün ona qələbə sevincini yaşatmaq kifayət edir. Xalq səmimiyyətin və uğurun olmadığı yerdə olmayacaq. Bunu anlamaq lazımdır.

Qərb də sanki uzaqlaşıb. Qərb "fəallığı cəmiyyətdən gözləyirik, yalnız bu halda sərt mövqe göstərə bilərik" bəhanəsi ilə növbəti dəfə xalqı taleyi ilə təkbaşına buraxır. Qərb nümayiş etdirir ki, neft maraqları və geosiyasət naminə asanlıqla demokratiyanı dəfn edə bilər.

Qarşıdan gələn parlament seçkiləri sıradan hadisə deyil. Bu dəfə də dünya gücləri birləşərək, Azərbaycan demokratiyasına zərbə vura bilərlər.

Lakin istənilən halda cəmiyyətin müqaviməti, müxalifətin qeyri-standart addımları proseslərin məcrasını dəyişməyə qadirdir. Bu baxımdan, seçkiyə bir neçə ay vaxt qalmasına baxmayaraq, müxalifətin bu dərəcədə passiv mövqe sərgiləməsi, gözləmə mövqeyində durması anlaşılan deyil. İqtidar düşərgəsi beynəlxalq aləmlə "kürü diplomatiyası", "geosiyasi şantaj" dilində danışır. Bu istiqamətdə beynəlxalq miqyaslı bleflərdən tutmuş, narazılara güc nümayişinə qədər istifadə edən iqtidar oyun üstünlüyünü ələ almağa cəhd göstərir və müəyyən mənada buna nail ola bilir.

Müxalifət isə sükutu pozmaq niyyətində görünmür. Bu isə olduqca passiv oyun nümayiş etdirmək deməkdir. Seçkilərə bu qədər az müddət qalmış ictimaiyyətlə daha intensiv işin aparılmaması təəccüb doğurur.

Beynəlxalq aləmin xalqı rejimlə üz-üzə qoymaq cəhdləri fonunda müxalifətin son dərəcə əhəmiyyətli olan vaxt itkisinə bu dərəcədə etinasız yanaşması qəribədir.

Müxalifətin belə passiv davranışı cəmiyyətdə bir məyusluq da yaradır. Onu da unutmaq olmaz ki, xalqın müxalifətə verdiyi limit payızda başa çatır. Odur ki, müxalifət daha ardıcıl olmağa məhkumdur. Vurğulayaq ki, bu gün beynəlxalq güclər yalnız monolit siyasi düşərgəyə dəstək verəcək, bu baxımdan müxalifətdə daxili savaş açanlar protest elektoratının son ümidlərini də öldürməyə cəhd göstərdiklərinin yəqin ki, fərqindədirlər.

Qarşıdan gələn seçkilərdə əsas qüvvəyə xalqın özü çevrilə bilər. Bu seçkilərdə heç bir xarici amilin demokratiyanın yanında olmaması, müxalifətin isə uşaq oyunlarına aludə olması ölkənin gələcəyini qaranlığa düçar edir.

Xarici amillərə təsir edəcək yeganə stimul xalqın özünün mübarizəyə qalxmasıdır. Bu baxımdan, illərdir ki, liderlərə ümid bəsləyən xalq son anda özü təkbaşına mübarizəyə başlaya bilər.

Hər gün minlərlə insan səmimi şəkildə inancına, hüququna hörmət qoyulmasını tələb edir və bu barışmazlığa görə təqiblərlə üzləşir. Lakin artıq elə bir mərhələ başlayıb ki, təqiblərlə insanları mübarizədən döndərmək mümkün deyil. Əgər siyasi liderlər tezliklə öz xalqı ilə danışıqlara başlamasa, nəticə ağrılı ola bilər.

Seçkilərə olduqca az vaxt qalır. İqtidar anlamalıdır ki, seçkilərin nəticəsini saxtalaşdırmaq mümkündür, ən müxtəlif intriqa və oyunlarda iştirak etmək də mümkündür, lakin bu xalqın dəyişiklik istəyinin qarşısını almaq artıq mümkün deyil. Bunu elə müxalifət də anlamalıdır...




# Oruc: insanı haramdan qoruyan immunitet

**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim! Mübarək Ramazan ayını artıq yaşamaqdayıq. Böyük İlahi ziyafətə daxil olmuşuq. Ramazan ayı sözün həqiqi mənasında həyatımıza daxil olub. Bu ilahi ziyafətin hər saatının, dəqiqəsinin, hətta saniyəsinin də qiymətini bilmək və dəyərləndirmək lazımdır. Əslində insan istəsə, həyatında bir çox şeylərlə Allahı yad edə bilən varlıq ola bilər. Bizim ətrafımızda milyonlarla, milyardlarla səbəblər düzülüb ki, hamısı hazırdır ki, Allahı yad etmək üçün vasitə olsunlar. Amma çox təəssüf ki, biz insanlar bəzən fərqində olaraq, bəzən də olmayaraq, bunları görmürük.**

Məsələn, hər kəsin bildiyi kimi, yay mövsümüdür və övladları universitetə hazırlaşan valideynlərin bir çoxu maraqlı bir vəziyyət yaşayırlar. Hamı narahatdır ki, görəsən, imtahandan sonra vəziyyət necə olacaq. Pis nəticələr olanda adətən hamı fikirləşir ki, bu vəziyyətə daha öncədən, 5 il, 10 il əvvəldən çalışılmalı idi. Bu, hələ dünya imtahanıdır və insan buna hazırlaşmayanda müsbət bir nəticəyə gələ bilmir və sonda ona peşmançılıq qalır. Amma bunların özündə əslində, bir hikmət var. Biz bunlara baxıb, ibrət çıxarmalıyıq. Bir gün gələcək, dünyadan köçəcəyik, o imtahana hazırıqmı? O imtahandan sonra qarşılaşacağımız duruma hazırıqmı? Dünyadan gedəndən sonra buradakı yaxşı əməllərdən başqa, dərdimizə bir əməl çatmayacaq. Heç bir iş xeyrimizə yaramayacaq. Heç bir təfərrüat məsələ, ikinci, üçüncü dərəcəli məsələ bizim karımıza çatmayacaq. Yalnız bir növ əməl var ki, o, insanın əbədi səadət və bədbəxtliyini müəyyən edən əməldir. Bu, Allaha xatir etdiyimiz əməllərdir.

## Təfəkkür insani keyfiyyətləri üzə çıxarır

Qeyd etdiyimiz kimi, o əməllər ki, Allaha xatir olub, Allah rizası üçün olub, həmin əməllərin axirətdə də faydası olacaq. Allahın razılığına səbəb olan əmələ yiyələnmək isə təfəkkür və düşünməkdən keçir. Təfəkkür və düşünmək olmasa, təftiş olmasa, insan əməllərinin Allaha xatir edib-etməməsinin heç fərqinə də varmaz. Bu mənada Ramazan ayının üçüncü gününü duasında keçən mətləblər bir daha bu məsələləri bizim diqqətimizə çatdırır. Duada buyurulur: **"Allahım, bu gün mənə yaxşı düşünmək və ayıq fikir əta et. Məni ağılsız və səfeh işlərdən uzaq et. Bu gün Öz səxavətinlə nazil etdiyin hər bir xeyirdən mənə pay ayır. Ey səxavətlilərin ən Səxavətlisi".**

Ramazan ayının gündəlik dualarında çox önəmli xüsusiyyətlər, nöqtələr var ki, həm günümüzə, həm də bütün il boyu yaşantımıza aidiyyəti var. Duadan göründüyü kimi, bizlər Allahdan yaxşı



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

düşünmək və ayıq fikir istəyirik. İnsanın ən böyük müşkülü, düşünmək və təfəkkürlə bağlıdır. İnsan düşündüyü, fikirləşdiyi zaman insani keyfiyyətləri üzə çıxır. İnsan nə qədər təfəkkür edir, nə qədər əqlini işə salırsa, o qədər insani keyfiyyətləri üzə çıxır.

## Şeytan (lən) insanın əqlani yanaşmasının düşmənidir

Nəhayətdə, iblis lənətliyin bütün səy və çalışmaları - bizlərin düşünməyimizə mane olmaqdır. Bizi təfəkkürdən ayrı salmaqdır. Şeytan lənətlik insanın heç bir məsələyə əqlani yanaşmasını istəmir. Buna görə də biz bu ayın günlərinin məxsusi dualarında Allahdan yaxşı düşünmək, ayıq olmaq istəyirik. İstəyirik ki, bizi ağılsız və səfeh işlərdən uzaq etsin. Əgər düşünsək, təfəkkür etsək, əqlimizi işə salsaq, boş, mənasız, əbəs işlərdən uzaq olmuş olarıq. Əslində biz həyatımızın kifayət qədər hissəsini boş və əbəs işlərə sərf edirik. Diqqət etsək, görəcəyik ki, yaşayışımızda da bir çox şeylər elə bunun üçün hesablanıb ki, vaxtımız necə gəldi sərf olunsun. Əgər ətrafdakı mühitə, öz həyatımıza diqqət etsək, nə qədər boş, nə qədər mənasız, nə qədər əhəmiyyətsiz məsələlərə diqqətimizin yayınmasının şahidi olarıq. Çünki düşünmürük, təfəkkürü kənara qoymuşuq, bu barədə fikirləşmirik.

Düşünsək, təfəkkür etsək, ayılarıq. Düşünmək - bütün məsələlərin əvvəlidir. Düşünməyən insanlar əlbəttə ki, qəflətdə olur. Ona görə ayılmaq üçün düşünmək lazımdır. Əgər düşünməsək, boş və bihudə işlərin burulğanında həyatımızı sərf etmiş olarıq. Çünki boş şeylər, mənasız şeylər daha çox yayılandır. Məsələn, son vaxtlar idman adı ilə qumar geniş yayılıb. Adətən insanları "az zəhmətlə çox qazanmaq" kimi cəzbediciliklə tora salırlar. Qumarın rəngi, növü yoxdur. Bu, qumardır və bunun başqa bir adı yoxdur. Qumar yalnızca bəlli, öyrəşilən vasitələrlə oynamaq deyil ki... Artıq idman vasitəsi ilə düşünməyən insanı qumarbaz edirlər və insan bunun fərqinə də varmır. Birbaşa insana "sən qumarxanaya girirsən", - desələr, fikirləşər. Ona görə də birbaşa deyil, dolayı yollarla, idman adı ilə insanları qumara öyrəşdirirlər.

## Az danışmaq, çox düşünmək

Əxlaq ustadları Ramazan ayı ilə bağlı tövsiyə edirlər ki, bu ayda insan az danışmalı, çox düşünməli və öz əxlaq və davranışlarının daha da yaxşı olması üçün səy göstərməlidir. Biz adətən çox danışırıq. Hətta o qədər çox danışırıq ki, bir-birimizi eşitmək də istəmirik. Bu ay - eşitmə fürsəti olan aydır, dinləmə fürsəti, susma fürsəti, düşünmə fürsəti olan aydır. Əxlaq və davranışlarımızın daha yaxşı olması üçün biz gərək təfəkkür edək. Düşünmək lazımdır ki, necə edək ki, əxlaq və davranışlarımız daha yaxşı olsun. Necə edək ki, insanlarla ünsiyyətimiz daha mülayim, daha gözəl, daha səmimi və mehriban olsun.

Ramazan ayıdır, mübarək aydır, insanlararası ünsiyyət baxımından diqqət olunası bir aydır. Bizim dinimiz tərki-dünya dini deyil ki. Hərənin özünü bir kənara çəkib, özü ilə məşğul olduğu bir tərki-dünyalıq deyil ki. Biz deyə bilmərik ki, dünya bir kənara dursun, bunun bizə bir aidiyyəti yoxdur, biz özümüzlə məşğul olmaq istəyirik. Dinimiz nə dünyanı tərk etməyə, nə də axirəti tərk etməyə bizə icazə vermir. Gerçək həyatın içində olmaq, gerçək yaşantının içində olmaq dinimiz tərəfindən tövsiyə olunur. Burada yaşayaraq, həmin o ruzini qazanmaqla, həmin o dərsimizi oxumaqla, həmin o qızmar istini hiss etməklə, həmin o çətinlik və müşküllükləri hiss etməklə, bütün bu reallıqların içində, bunlarla bərabər bir mənəvi yerlərə çıxmağa çalışmalıyıq.

## Orucun psixoloji təsirləri

Mübarək Ramazan ayında tutulan orucun müxtəlif istiqamətlərdə faydaları var: cismi, ruhi, psixoloji, ictimai və s. Ramazan ayının ən mühüm faydalarından biri - mübarək orucun insanın psixoloji sağlamlığına olan təsiridir. Keçə dəfə də qeyd etdiyimiz kimi, psixoloji mərəzlərin 3 ən ümdəsi: iztirab - qəlbi narahatlıqlar, vəsvəsə və depressiyadır. Mübarək Ramazan ayının orucunun həm bu mərəzlərin qarşısını almaqda, həm azaldılmasında fövqəladə müsbət təsiri var. Bu barədə İslam Peyğəmbərindən (s) nəql edirlər: **"Qəlbində olan narahatlıqların, iztirabın və həyəcanın azalmasını istəyirsənsə, Ramazan ayını və hər aydan 3 gün oruc tut".**

Psixoloqların nəzərində narahatlığın və həyəcanın ağlabatan dərəcədə olması bütün insanlarda mövcuddur. Bu nəinki mənfi, əksinə müsbət və qurucu yükə malikdir. Məsuliyyət hissinin artmasına, işdə ciddiliyin artmasına, kreativliyə səbəb olar. Amma hədisdə iztirabın, narahatlığın həddini aşan, davamlı olan, psixoloji potensialı və imkanları zəifLədən, uğursuzluğa aparan və özünəinamı sarsıdan, gücsüzlük, yazıqlıq, biçarəlik halına gətirən anlamından danışılır. Bu, əslində əsrin ən ciddi mərəzlərindən biridir. Bu narahatlıqların əsas mənbəyi - insanın həyatının mərkəzində, nüvəsində Allahın olmamasıdır. O narahatlıqlar, iztirablar, ona görə yaranır ki, insanın həyatında onları həll edə bilən bir varlıq olmur. Allah insanın həyatında mərkəzdə olanda, bu narahatlıqlar da olmur. Çünki o iztirablar insanın həyatında Allahın olmamasından yaranır. Allah həyatın nüvəsində olanda, bu narahatlıqların olması qeyri-mümkündür. Oruc Allahla bağlantı yaradaraq, Onun insan həyatının mərkəzində olmasına səbəb olur.

## Oruc ümidli insanın əməlidir

Orucun ən mühüm psixoloji təsirlərindən biri də insanda ümid yaratmasıdır. Orucda ümid var. Ümidsiz heç kim oruc tuta bilməz. Oruc - ümidli insanın, aqibətə baxışı olan insanın əməlidir. Oruc və ümid - bunlar kifayət qədər bir-birinə yaxın olan mövzulardır. Oruc insanda təvəkkül yaradır, işin aqibətini Allaha həvalə etmək xüsusiyyəti yaradır. Təvəkkül insanın qəlbi narahatlıqlarının, depressiyalarının ən gözəl dərmanıdır. Hər gün iftar açarkən dediyimiz dua əslində işimizin sonunu Allaha həvalə etməkdir. Yəni "Mən üzərimə düşəni etdim, bacardığımı etdim, Allahım, Sənə sığınıram, Sənə təvəkkül edirəm, məndən asılı olanı edəndən sonra nə olursa-olsun, mən hər bir şeyi Sənə həvalə edirəm". Narahatçılıqların hamısının dərmanı buradadır. Oruc insana təvəkkül etməyi öyrədir.

## Oruc insanı haramdan qoruyan immunitet kimidir

Oruc insanı səbatlı edir. Başqa vaxtı üç gün ardıcıl eyni işi görə bilməyən insan, mübarək Ramazan ayında otuz gün, günün 16-17 saatını səbat göstərir, davamiyyət ortaya qoyur. İnsan bir gün yox, iki gün yox, on gün yox - otuz gün Allaha xatir, Allah deyib deyə, 16-17 saat bacarıq ortaya qoyur. Burada səbatlılıq, davamiyyət var.

İnsanın narahatlıqlarının aradan aparmaq üçün ən gözəl vasitələrdən biri də bir işdə səbat göstərə bilmək, davamiyyət ortaya qoya bilməkdir. İnsan otuz gün ərzində Allahın buyuruşuna "ləbbeyk!" deyərək, hətta onun halal qıldığı şeylərdən də çəkinir. Otuz gündə halallardan da çəkinmək vərdişlərini formalaşdıran insan, qalan günləri necə haramdan çəkinməsin?! Özünün yaşayışının iki əsas ünsürü olan yemək və sudan 16-17 saat imtina edə bilirsə, haram yeməkdən necə çəkinməsin insan?! Bunu əlbəttə ki, çox rahat edə bilər. Oruc olmanın gizli hikmətləri var. Orucla Allaha Təala insana sanki bunu başa salır: "Sən istəyəndə, iradə ortaya qoyanda hətta halallara nəzarət edə, onları kontrolda saxlaya bilirsən. Mən sənə belə bir istedad vermişəm". Ona görə də halallardan çəkinməklə, əslində, insan özündə gələcəkdə haramlardan qorunmaq üçün immunitet yaradır. Oruc insanı haramdan qoruyan, günahdan qoruyan immunitet kimidir.

## Oruc insanı səbirli edir

Oruc insanı səbirli edir. İki istiqamətdə insana səbir bəxş edir: birincisi, ləzzətlərin cazibəsinə müqavimət mənasında, ikincisi və çox mühüm olanı - o vəziyyətin, o halın özünə səbir etmək mənasında. Bu da insan iztirablarının, narahatçılıqlarını həll edən bir məsələdir. Səbirli insan üçün müşküllər rahat həll olur. Hər hansı bir çətinlikdən panikaya düşmür. Oruc insana başlanğıc və aqibət gerçəkliyini anladır. Oruc insanın iradəsini gücləndirir. Bütün bunlar psixoloji baxımdan sağlamlıq yaradır və durumu gücləndirir.

Oruc tutmaq - insanın bəndə olaraq, bütün vücudu ilə, bütün varlığı ilə Allahı zikr etməsi deməkdir. Bu mənada Ramazan ayının dördüncü gününün duasında da maraqlı bir nöqtə var. Duada buyurulur: **"İlahi, əmrlərini yerinə yetirməkdə mənə qüvvət ver, zikrinin şirinliyini mənə dadızdır. Sənə layiqincə şükür etmək üçün məni ilhamlandır. Kəraminə and verirəm, məni öz himayəndə gizlət və qoru, ey, görənlərin ən bəsirətlisi!"** Göründüyü kimi, bu günün duasında Allahdan onun əmrlərini yerinə yetirmək üçün qüvvət istəyirik. Allah Təala bizə ona itaət etmək üçün, ona bəndə olmaq üçün qüdrət verməsə, bizim özümüzə qalsa, mümkün olmayacaq. Ona görə də Allahdan bu mənada qüdrət diləmək, həm də bunu Onun itaətini yerinə yetirmək üçün istəmək - insanla Allah rabitəsini bir daha gündəmə gətirir. Burada insan anlayır ki, əgər Allah ona iradə versə, qüdrət versə və özünün də səyi olsa, Allaha bəndəlik səadətinə çatmış olar.

Duada keçən "zikrin şirinliyi bizə dadızdır" ibarəsi ilə bağlı Allah Rəsulundan (s) da bir neçə buyuruş var ki, onlara toxunmaqda fayda vardır. Allahın Peyğəmbərindən (s) belə nəql edirlər: **"Cənnət bağlarında gəzişin".** Dedilər: "Ey Allahın Peyğəmbəri! Cənnətin bağları nədir?" Buyurdu: "Allahın zikr olunduğu məslislər".

Göründüyü kimi, Allah Rəsulu (s) burada Allahın zikrini cənnət bağları ilə müqayisə edir.

## Allahı yad etmək - Onu öz həyatında, yaşantında meyar etmək deməkdir

Bir başqa hədisdə isə Allahın Peyğəmbərinin (s) belə buyurduğunu nəql edirlər: **"Məslislər üç qisimdir: xeyri çox olan, sağlam və ölü. Xeyri çox olan məclis - Allahın zikr olunduğu məclisdir. Sağlam məclis - sakit məclisdir. Ölü məclis isə onda batil işlərin göründüyü məclisdir".**

Bundan başqa, Allahın Peyğəmbərinin (s) məntiqində Allaha məhəbbətin nişanəsi - Onu zikr etməkdir: **"İnsanda Allah məhəbbətinin nişanəsi - daim Allahı zikr etmək istəyi və Allaha məhəbbətin olmamasının əlaməti - Allahı zikr etməkdən xoşu gəlməməsidir".** Yəni Allahı yad etmək insanın vücudən, öz varlığı ilə Allahın dərgahında olmağının fərqinə varmasıdır. Burada zikr, xatırlama təkcə dildə yad etməklə məhdudlaşmır. Burada zikr etmək, yad etmək, daha geniş və əhatəli mənadadır. Allahı yad etmək - Onu öz həyatında, yaşantında, işlərində meyar etmək deməkdir. Allahı məhəbbətin nişanəsi budur ki, sən Onu öz işlərində meyar qərar verəsən.

Allahı zikr etmək barəsində başqa bir yerdə Allahın Peyğəmbərinin belə buyurduğunu nəql edirlər: **"Dörd şey kimə verilərsə, dünya və axirət xeyirləri ona verilmişdir: dözümlü bədən, Allahı zikr edən dil, şükür edən qəlb və ləyaqətli zövcə".** Bəzən biz bu nemətlərə malik oluruq, amma onun şükrünü doğru-dürüst əda etmirik. Sağlamlıq - ən böyük nemətlərdən biridir. Allahı zikr edən dil - insanın əbədi səadətinin başlanğıcıdır. İnsan Allahı zikr etməsə, başqa işlərinin heç bir anlamı yoxdur. Burada da zikr etmək yalnızca dildə zikr etmək deyil. Allahın zikri insanın əməlləri, praktik olaraq, davranışları ilə Allahı xatırlamasıdır.

**Allahım, bizlərə zikr edən dillər nəsib et.**

**Allahım, bizləri az danışan və çox düşünənlərdən qərar ver.**

**Allahım, bizlərə Sənə bəndə olmağı nəsib et.**

**Allahım, bizləri boş, mənasız işlərdən uzaq et.**

**Allahım, bizlərə Öz zikrinin şirinliyi dadızdır.**

**Allahım, bu ayda tutduğumuz orucların əməl dəftərimizdə Səni xatırlama, Sənə məhəbbət kimi qeydə alınmasını nəsib et.**

**Allahım, Zəmanə Sahibinin (ə.f) zühurunu təcil et. Amin!**

# Ramazan gəldi, qiymətlər bahalaşdı...

## İqtisadçı ekspert: "Qiymət artımı üçün iqtisadi zəmin yoxdur"

**11 ayın sultanı olan Ramazan ayı artıq başlayıb. İnsanlar bu müqəddəs ayda oruc tutur, imsaq və iftar vaxtlarında daha keyfiyyətli qidalar qəbul etmək üçün dükan-bazarlara üz tutur. Hər kəs istəyir ki, bayram süfrələri digər günlərdən fərqli olaraq daha zəngin və çeşidli olsun. Ancaq çox zaman bunu etmək mümkün olmur. Çünki Ramazan ayının başlaması bazarda süni qiymət artımlarına stimul verib. Belə ki, bayram menyusuna daxil olan əsas ərzaq məhsullarının demək olar ki, hamısında bahalaşma müşahidə edilməkdədir.**

Apardığımız müşahidədən məlum oldu ki, xurmaların qiyməti artıb. Belə ki, baş çəkdiyimiz "Sabko" marketində əvvəl 1 manat 50 qəpiyə olan xurmanın qiyməti indi 2 manat 50 qəpiyə idi. Baş çəkdiyimiz digər "Ailəm" marketində də quru meyvələrin və xurmanın qiymətində bahalaşma olduğunu müşahidə etdik. Açıq və çəki ilə satılan xurma 2 manat 70 qəpik, qutuda satılan xurma isə 2 manat 50 qəpiyə idi. Açıq şəkildə satılan nisbətən ucuz xurmalarda var idi. Ancaq alıcılar bahalı xurmaların daha məsləhətli və yaxşı olduğunu dedi. Apardığımız müşahidə zamanı satıcıların müştərilərə əvvəlcə bahalı xurmaları təklif etdiyini müşahidə etdik. Ləpələrin də qiymətində artım var. Kiçik qablaşmada olan fındıq ləpəsi 2 manat 40 qəpiyə satılırdı. Satıcılardan qiymətlərin bahalaşmasının səbəbini soruşduqda onlar bunu tələbatın artması ilə əlaqələndirdi. **Xurma satıcısı Elçin Quliyev daha çox xurmanın satıldığını dedi:** "Əvvəllər günlərlə, həftələrlə xurma satılmırdı. Amma Ramazan ayı gələndən bəri xurma alıcıları artıb. Biz də 3-5 manat qazanmaq üçün xurmanın qiymətini cüzi artırmışıq. Həm də bu ona görədir ki, satışda xurma azdır".

Bu zaman mağazada olan alıcı satıcının sözünü kəsərək öz narazılığını bildirdi: "Mən tez-tez Türkiyəyə gedib gəlirəm. Orada bu müqəddəs ayda qiymətlər nəinki qalxır, əksinəz daha da ucuzlaşır. Barı bu müqəddəs bayramda bunu etməyin, günahdır".

Bazarlardakı vəziyyətin nə yerdə olduğunu öyrənmək üçün "8-ci kilometr" bazarına üz tutduq. Burada da qiymətlər mağazalardakından fərqlənmirdi. Xurmanın, quru meyvələrin, ləpənin, eyni zaman meyvə və tərəvəzlərin qiymətində müəyyən qədər artım vardı. Satıcılar isə bu artımın günahını topdansatış mərkəzlərində görürdülər.

**Xurma və quru meyvələrin satıcısı Kamil Əliyev bildirdi ki, onun satdığı kişmiş xaricdən gətirilir. Ona görə də baha satır:** "Mənim satdığım məhsullar xaricdən gətirilir. Buna görə də bahadır. Əvvəl də belə idi. Biz də alanda üstünə 10-20 qəpik qoyuruq ki özümüzə də nəsə qalsın".

Bazarda quru meyvələrin kiçik qablaşması 2 manat 50 qəpik, badamın qiyməti 7-8 manat arasında, kişmiş 6 manata satılırdı. Onların içərisində bahalaşdığı daha çox sezilən yenə də xurma idi. 1 manat 30 qəpiyə satılan xurmaların qiyməti indi 2 manat 50 qəpikdən başlayırdı.











**Oruc tutduğunu deyən alıcı Rəvan Quliyev bu qiymətə xurma almadığını və orucunu su ilə açacağını dedi:** "Mən istəsəm bu xurmadan ala bilərəm. Sadəcə olaraq, məni əsəbiləşdirən vəziyyət odur ki, bu müqəddəs bayramda işbazlar sui-istifadə edirlər. Ona görə də hər kəs xurma almağı boykot etməlidir. O zaman məcbur olub qiyməti aşağı salacaqlar".

Digər tərəvəzlərə gəlincə isə pomidor 1 manat 50 qəpik, badımcan 2 manat 50 qəpik, bibər 5 dənəsi 1 manat, xiyar 80 qəpik, lobya 1 manat 40 qəpiyə satılırdı. Meyvələrin qiymətində isə hər hansısa bir ucuzlaşma müşahidə etmədik. Bahalaşma olduğu kimi qalmaqda idi. Belə ki, gilas 3-4 manata, ərik 5 manata, alça 2-3 manata, armud 4-5 manat, alma 1-3 manat arası, şaftalı 3 manata satılırdı. Satıcılar bu cür bahalaşmanın əsl səbəbinin rayonlardan məhsulun az gəlməsi ilə əlaqəli olduğunu desələr də xurma və bir sıra quru meyvə satıcıları qiymətləri sırf Ramazan ayına görə artırdıqlarını açıq şəkildə deyirdilər.

Maraqlıdır, nəyə görə hər il Ramazan ayında qiymət artımı baş verir və bu problem hər il mətbuatda yazılsa da həllini tapa bilmir?

**İqtisadçı ekspert Vüqar Bayramov süni qiymət artımına heç bir iqtisadi zəmin olmadığını dedi:** "Ramazan süfrəsində istifadə edilən ərzaqların qiymətlərindəki süni artımların qarşısının alınması olduqca vacibdir. Çox təəssüf ki, əvvəlki illərdə də aparılan monitorinqlər Azərbaycanda hər il Ramazan ayında qiymətlərin azalması yox, artması prosesinin getdiyini göstərir. Təbii ki, bu qiymət artımları süni qiymət artımlarıdır. İstər xurmanın, istərsə də digər ərzaq məhsullarının qiymətinin artması üçün hansısa iqtisadi zəmin yoxdur. Həmin məhsulların xərci dəyişilməyib. Buna görə də bu məhsullarda iqtisadi cəhətdən heç bir artım müşahidə edilməməli idi. Süni qiymət artımının yeganə səbəbi Azərbaycanda xüsusən də bayramlarla bağlı qiymət siyasətində biznes etikasının tam formalaşmamasıdır. Bizim işbazlar çalışırlar ki, həm alıcılıq qabiliyyətini yüksəltsin, həm də qiyməti bahalaşdırsın. Azərbaycan biznesində sahibkarlar strateji deyil, daha çox qısa müddətdə gəlir əldə etməyə üstünlük verdikləri üçün süni qiymət artımı yaranır. Bu qiymətlərin tənzimlənməsində Azərbaycan İqtisadi və Sənaye Nazirliyi tərəfindən qiymətlərin tənzimlənməsinə, xüsusən də süni qiymət artımlarının qarşısının alınmasına ehtiyac var".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.**

**Telefon: 055 260 69 84.**

**Hyundai Sonata 2007, 10300 usd, probeq 98000 km originaldi, 2400 motor, 172 a.g. , qara, lyuk, kondisioner, ABS, merkezi qapanma, tekerleri tezedi, oz mashinimdi.Tecili satiram.Servis mashinidi. Mashinda problem yoxdu, udar gormeyib.**

**(050)-535-56-25 Eltay.**

**Başağlığı**

**Müsavat Partiyası Tərtər rayon təşkilatı təşkilatın üzvü**
**Alim Arif oğlu Mustafanın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34